6 mart 2024 №18 (2083) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Avropa Komissiyasının Prezidenti İlham Əliyevə təbrik məktubu göndərib



Avropa İttifaqının ali icra orqanı – Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen Azərbaycan Prezidenti İlham Əliyevə təbrik məktubu göndərib.

"Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi təbrik edirəm. Bu, Avropa İttifaqının bütün vətəndaşlarımızın maraqları naminə Şərq Tərəfdaşlığı çərçivəsində əhatə olunan ikitərəfli dialoqumuzun və bütün sahələrdə regional əməkdaşlığımızın, o cümlədən rifah və yaxşı idarəetmə prinsiplərinin möhkəmləndirilməsinə sadiqliyini vurğulamaq üçün münasib fürsətdir", – deyə Ursula Fon der Lyayenin məktubunda bildirilir.

Qeyd olunur ki, Avropa İttifaqı Cənubi Qafqaz regionunda davamlı sülhə və sabitliyə, həmçinin regional əməkdaşlığa və əlaqələrə təkan vermək istiqamətində işləməyə sadiqdir.

Avropa Komissiyasının Prezidenti, həmçinin 2024-cü ilin noyabr ayında Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransı – COP29-u səbirsizliklə gözlədiyini deyib: "Bu, şübhəsiz ki, iqlim və enerji keçidi gündəliyinin irəlilədilməsində Azərbaycanın liderlik nümayiş etdirməsi baxımından əla fürsət olacaq".

# Kino ittifaqları birləşdi – kinomuz üçün xeyirli olsun!

### Ayrılığın sonu varmış...

12 il əvvəl yaradıcılıq, sənət məsələlərinə heç dəxli olmayan bir sıra səbəblər üzündən iki təşkilat arasında parçalanan kino cameəsi, nəhayət, birləşdi.

Martın 5-də Azərbaycan Kinematoqrafçılar İttifaqı (AKİ) və Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının (ARKİ) birləşməsilə bağlı ittifaqların üzvlərinin iştirakı ilə konfrans keçirilib. Kino xadimlərini bir araya gətirən toplantıya isə Azərbaycan Teatr Xadimləri İttifaqı (ATXİ) ev sahibliyi edib. Konfrans ATXİ-nin böyük zalında – "Aktyor evi"ndə gerçəkləşib.

Xatırladaq ki, AKİ 1963-cü ildən fəaliyyət göstərir. Uzun illər ittifaqın sədri olmuş Rüstəm İbrahimbəyovun vəfatından (2022) sonra AKİ-yə Xalq artisti Rasim Balayev rəhbərlik edir.

ARKİ 2012-ci ilin iyununda, bir qrup kino xadiminin AKİ-ni tərk etməsindən sonra yaradılıb və o vaxtdan bu quruma Xalq artisti Şəfiqə Məmmədova rəhbərlik edib.

İki kino ittifaqının birləşməsi məsələsi ötən il gündəmə gəlib. 2023-cü il iyulun 26-da AKİ və ARKİ idarə heyətlərinin birgə iclası keçirilib və iki təşkilatın birləşməsi haqqında ortaq bəyanat qəbul edilib.

Birləşmə konfransının gündəliyinə bu niyyətin rəsmiləşdirilməsi və vahid təşkilatın nizamnaməsinin təsdiqi, eləcə də sədr və idarə heyətinin seçilməsi məsələləri daxil edilib.

İki kino ittifaqının birləşməsi və yeni təşkilatın adının Azərbaycan Kinematoqrafçılar İttifaqı olması məsələsi səsverməyə qoyularaq, demək olar ki, yekdilliklə qəbul edilib. İştirakçılardan yalnız rejissor Xalq artisti Oqtay Mirqasımov birləşmənin əleyhinə səs verib.







Səsvermə ilə təşkilatın nizamnaməsi təsdiq edilib.

Sədr seçkisinə gəlincə, Şəfiqə Məmmədova yeni yaradılan kino ittifaqının sədrliyinə namizədliyini geri götürüb. Sədrliyə bir namizəd – Rasim Balayev təqdim olunub.

Xalq artisti Rasim Balayev yeni yaradılan (birləşmiş) Azərbaycan Kinematoqrafçılar İttifaqının sədri seçilib.

davamı səh. 2-də

## Hökumət başçıları mədəni-humanitar əməkdaşlığı da müzakirə ediblər

Martın 5-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov ilə Bakıda səfərdə olan Rusiya Federasiyası Hökumətinin sədri Mixail Mişustin arasında görüş keçirilib.

Hökumət başçıları iqtisadi-ticari və investisiya əməkdaşlığının aktual məsələlərini müzakirə ediblər. Dövlət başçılarının tapşırıqlarına uyğun olaraq, energetika, sənaye, nəqliyyat, aqrar və mədəni-humanitar sahələrdə birgə layihələrin həyata keçirilməsinə xüsusi diqqət yetirilib.

Mədəni-humanitar əməkdaşlığın yüksək səviyyəsindən məmnunluq ifadə edilib. Tərəflər gələcəkdə də mədəniyyət, elm, gənclər siyasəti və təhsil sahələrində qarşılıqlı fəaliyyətin inkişafının zəruriliyini bildiriblər.

Görüşün yekunlarına dair turizm və mədəniyyətlə bağlı, həmçinin Azərbaycan-Rusiya dövlət sərhədindən keçid məntəqələrinin və avtomobil yolu infrastrukturunun inkişafına dair əməkdaşlığın gücləndirilməsi üzrə sənədlər imzalanıb.

## 30 mövsüm səfərdə oynasa da...

### "Qarabağ" Futbol Klubu haqqında sənədli filmin təqdimatı

Mədəniyyət Nazirliyinin dəstəyi ilə "Salnaməfilm" studiyası, Bakı Media Mərkəzi və İctimai Televiziyanın birgə istehsalı olan "Qarabağ" FK – 30 mövsüm səfərdə" sənədli filminin təqdimatı keçirilib. Ekran əsəri martın 1-də Heydər Əliyev Mərkəzində nümayiş olunub.

Tədbirdə Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva, dövlət və hökumət rəhbərləri, tanınmış kino xadimləri, "Qarabağ" Futbol Klubunun kollektivi və digər qonaqlar iştirak ediblər.

Əvvəlcə qonaqlar "Qarabağ FK – 30 mövsüm səfərdə" tammetrajlı sənədli filmini izləyiblər.

Filmin baş prodüseri Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva, prodüserləri Nazim Hüseynov,



Orman Əliyev, Balakişi Qasımov, quruluşçu rejissoru Fuad Quliyev, ssenari müəllifləri İsmayıl Səfərəli, Roman Orkodaşvili, Ramil Ələkbərov, Fuad Quliyev, quruluşçu operatoru Mateuş Çuxnovski, quruluşçu rəssamı Şahin Həsənli, bəstəkarı Rəşad Haşımovdur.

davamı səh. 3-də

## Xocalıda Od çərşənbəsi

İlaxır çərşənbələrdən ikincisi – Od çərşənbəsi uzun illərdən sonra ilk dəfə Xocalıda da qeyd olunub.



Xocalının bərpa və tikintisində çalışan işçilər çərşənbə tonqalı qalayıblar. Çərşənbə xonçası bəzədilib, tonqal ətrafında şənlik təşkil edilib. Xocalı sakini Elşən Vəliyev oxuduğu "Qarabağ" mahnısı ilə hər kəsə fərəh dolu duyğular bəxş edib.

Uzun illər əsas arzu-niyyəti "yağı tapdağındakı yurdlarımız işğaldan azad olunsun, Novruzu doğma torpaqda qeyd edək" olan xalqımızın bu haqq-halal diləyi, nəhayət, gerçəkləşib. Novruz çərşənbələrində qalanan tonqalların hərarəti də artıq bütün yurd yerlərimizə yayılır.

Mifik düşüncədə od həm də müqəddəs hesab olunur. Bu müqəddəslik onun xilaskar kimi qavranılması ilə bağlıdır. İnanclara görə, tonqalda həm də köhnə illərin ağrı-acıları və uğursuzluqları yanaraq külə çevrilir. Xocalıda qalanan çərşənbə tonqalı da köhnə illərin ağrı-acılarının yanıb külə dönməsinin rəmzidir...

## Teatr Xadimləri İttifaqında "Baxış"a çıxanlar

Azərbaycan Teatr Xadimləri İttifaqında (ATXİ) fəaliyyət göstərən laboratoriyaların ənənəvi "Baxış" festivalı dördüncü dəfə keçirilir.

İttifaqın aktyor və rejissor laboratoriyalarında məşğul olan gənclər bir il ərzində öyrəndikləri barədə tamaşaçılar qarşısında hesabat verirlər. Üç gün ərzində (4, 6, 7 mart) ittifaqın böyük və kiçik səhnələrində göstərilən tamaşalara giriş sərbəstdir.

Martın 4-də keçirilən açılış mərasimində ATXİ-nin sədri vəzifəsini icra edən Xalq artisti Hacı İsmayılov yaradıcı gəncləri



teatr ictimaiyyətinə təqdim etmək, onların fəaliyyətini stimullaşdırmaq və istiqamətləndirmək məramlı festivalın əhəmiyyətindən danışdı. İttifaqda yaradıcılıq laboratoriyalarının yaranmasından 10 il keçdiyini və bu müddətdə maraqlı layihələrin icra olunduğunu yada saldı.

Festival marafonuna qoşulan gənclərə uğurlar arzulayan Hacı İsmayılov vurğuladı ki, ümumilikdə teatr məkanında yaradıcılıq proseslərini fəallaşdırmaq layihənin məqsədlərindən biridir.

davamı səh. 3-də

## Xankəndi xunta rejiminin binalarından təmizlənir

Otuzillik işğaldan azad edilmiş ərazilərimizdə bu gün Ermənistan silahlı qüvvələrinin vandallığının izlərini açıq-aydın görmək mümkündür. Onlar işğal etdikləri ərazilərdə bu müddət ərzində bütün mədəniyyət abidələrini, qəbirləri, evləri, məscidləri dağıtmış, təbiətə ciddi zərər vurmuş, tərk etdikləri ərazilərə isə minalar döşəmişlər.

Bu kütləvi vandalizm aktları Ermənistandakı etnik psixoloji vəziyyəti özündə ehtiva edir. Məkrli qonşularımızın işğal illərində əzəli torpaqlarımızda erməni arxitekturası əsasında inşa etdikləri binalar da onların həmin ərazilərə sahib çıxmaq niyyətini əks etdirir.

Xunta rejiminin işğal dövründə Xankəndidə inşa etdiyi iki bina da bunun bariz nümunəsi idi. Artıq əzəli sahiblərinə qayıdan Xankəndi xunta rejiminin binalarından da təmizlənir.

Xankəndidə işğalçılıq simvolu olmuş belə tikililərdən biri separatçı xunta rejiminin 1994-cü ildə inşa etdiyi və 2009-cu ildə yenidənqurma işləri apardığı "parlament" binasıdır. Üçmərtəbəli binada qondarma rejimin 33 "deputat"ı fəaliyyət göstərdikləri dövrdə separatçıların mənfur siyasətini dəstəkləyiblər. Separatçı rejimin və onun qondarma təsisatlarının tarixin küllüyünə göndərilməsindən sonra bu tikilinin aqibəti daş-beton parçaları şəklində zibilliyə atılmaq olmalıdır.

Azərbaycan ərazisində ikinci erməni dövləti qurmaq istəyən xunta rejiminin rəhbərləri



2023-cü ilin sentyabrında antiterror tədbirləri nəticəsində bir-bir həbs olundular. İndi isə onların səpdikləri separatizm toxumları məhv edilir.

davamı səh. 2-də



"Musiqi kimliyimiz"də aşıq sənəti

səh. 4




Teatrlar 10 martı necə qeyd edəcəklər?

səh.5



Azərbaycan və bolqar irsinin "Yaz paralelləri"

səh.8

## Milli Arxiv İdarəsinin rəisi təltif edilib

Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin rəisi Əsgər Rəsulov 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib.

Prezident İlham Əliyev martın 2-də bununla bağlı sərəncam imzalayıb.

Əsgər Rəsulov arxiv işi sahəsində səmərəli fəaliyyətinə görə dövlət təltifinə layiq görülüb.

Qeyd edək ki, martın 3-də 70 yaşı tamam olan filologiya elmləri doktoru, professor Əsgər Rəsulov 2018-ci ildən Milli Arxiv İdarəsinin rəisidir.

## Rəsulzadə və Türk dünyası – İstanbulda yubiley tədbiri

Martın 5-də İstanbul Universitetində "Məhəmməd Əmin Rəsulzadə və Türk dünyası" mövzusunda tədbir keçirilib.




Məhəmməd Əmin Rəsulzadənin 140 illiyi haqqında Prezident İlham Əliyevin sərəncamına əsasən təşkil olunan tədbirdə görkəmli ictimai-siyasi xadimin həyat və fəaliyyətindən, milli istiqlal uğrunda mübarizəsindən danışılıb, onun Azərbaycanın ictimai-fikir tarixində yeri və rolundan söz açılıb.

Bildirilib ki, XIX əsrin sonu – XX yüzilliyin əvvəllərində Azərbaycan bir sıra görkəmli şəxsiyyətlər yetişdirib, bu insanların gələcək nəsillərə örnək olacaq mübarizə yolu hər zaman yaddaşlarda yaşayacaq.

Tədbirdə "Rəsulzadə ev-muzeyi" ictimai qrupunun rəhbəri, tarix elmləri doktoru, professor Solmaz Rüstəmova, Türkiyənin Yeditepe Universitetinin professoru İbrahim Yıldırım, Türk Ocaqları İstanbul şöbəsinin rəhbəri Cezmi Bayram, Azərbaycan "Türk Ocağı"nın rəhbəri Akif Aşırlı və başqaları çıxış ediblər.

"VMF Holdinq"in başçısı Vahid Mustafayev Rəsulzadənin virtual ev-muzeyini əks etdirən saytı təqdim edib.

Tədbir Türkiyə-Azərbaycan Dərnəkləri Federasiyası (TADEF), İstanbul Universitetinin Ədəbiyyat fakültəsi və "Rəsulzadə ev-muzeyi" ictimai qrupunun birgə təşkilatçılığı ilə keçirilib.

## Türkmənistan TDT-nin tamhüquqlu üzvü ola bilər

Türkmənistan Respublikası bu il Türk Dövlətləri Təşkilatının (TDT) tamhüquqlu üzvü ola bilər.

Türkmənistan Parlamenti Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov bu barədə Türkiyənin Antalya şəhərində təşkil olunan III Diplomatiya Forumu zamanı bildirib.

Onun sözlərinə görə, ola bilsin ki, bu qərar böyük türkmən şairi və mütəfəkkiri Məhtimqulu Fəraqinin 300 illik yubileyi münasibətilə Aşqabadda TDT dövlət başçılarının Zirvə görüşündə açıqlansın.

Aşqabadda TDT-nin Zirvə görüşünün oktyabr ayında keçirilməsi nəzərdə tutulur.

Xatırladaq ki, Türkmənistan hazırda TDT-də müşahidəçi statusuna malikdir. TDT-nin beş daimi üzvü var: Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan. Türkmənistandan savayı Macarıstan və Şimali Kipr Türk Cümhuriyyəti də təşkilatın müşahidəçi üzvləridir.

## İşgüzar turizm imkanlarımız Türkiyənin turizm təmsilçilərinə təqdim olunub

Azərbaycan Turizm Bürosu və "Absheron Hotel Group" 29 fevral – 3 mart tarixlərində Türkiyədən olan 13 turizm sənayesi nümayəndəsinin Bakı şəhərinə işgüzar turizm üzrə tanıtım səfərini təşkil edib.



Səfərin təşkilində məqsəd Azərbaycanın işgüzar turizm imkanlarını tanıtmaq, təbliğ etmək və işgüzar məqsədlərlə Azərbaycana səfər edəcək sənaye üzvlərinin sayını artırmaqdır.

Tanıtım səfəri çərçivəsində Türkiyə turizm sənayesi nümayəndələrinin 30-a yaxın azərbaycanlı həmkarı arasında B2B formatında görüşlər keçirilib.

Bundan əlavə, iştirakçıların Bakı Konqres Mərkəzi, Heydər Əliyev Mərkəzi, "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu və "Atəşgah məbədi" Dövlət Tarix-Memarlıq Qoruğuna ziyarətləri təşkil olunub.

## "Baharın görüşləri" – yeni layihə

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin təşkilatçılığı ilə "Baharın görüşləri" adlı yeni layihə həyata keçirilir. Layihə çərçivəsində Suraxanı rayon Heydər Əliyev Mərkəzində müğənni Xatun Əliyeva ilə görüş təşkil olunub.



Görüşdə idarə və müəssisələrin əməkdaşları, mədəniyyət işçiləri, şəhid ailələrinin üzvləri, rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Dövlət Himni səsləndirilib, şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Aparıcı tədbiri açıq elan edərək Od çərşənbəsi münasibətilə iştirakçılara təbriklərini çatdırıb, müğənni haqqında məlumat verib.

Xatun Əliyeva "Tənhayam", "Çıxma qarşıma", "Səndən ötrü", "Sən gəlmədin", "Qayınana" kimi mahnılarını səsləndirib və tamaşaçıların ona ünvanladığı sualları cavablandırıb.

Görüş müğənninin ifasında "Azərbaycan" mahnısı ilə sona çatıb. Musiqiçinin çıxışı alqışlarla qarşılanıb.

## "Bu məsələ ilə məşğul olmasaq, hamımız əziyyət çəkəcəyik"

### "Xəzər dənizinin getdikcə dayazlaşmasının şahidi oluruq"

Bərpaolunan enerji layihələrinin həyata keçirilməsi bizim ümumi yaşıl enerji gündəliyimizin və məsuliyyət hissimizin bir hissəsini təşkil edir.

Azərbaycan Prezidenti İlham Əliyev bunu martın 1-də Bakıda keçirilən Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclasları zamanı "Euronews" televiziyasına müsahibə verərkən deyib.

Dövlət başçısı vurğulayıb ki, qazıntı yanacağı ilə zəngin ölkələr yaşıl enerjiyə keçiddə ön sıralarda olmalıdır: "Biz bunu ənənəvi ehtiyatlarımız çatışmadığına görə etmirik, ona görə edirik ki, neft-qaz satışından əldə etdiyimiz maliyyədən, gəlirlərdən bərpaolunan enerjiyə sərmayə yatırmaq üçün istifadə etməklə töhfə vermək və buna ehtiyacın olduğuna dair ümumi bir anlayış yaratmaq istəyirik. Biz hər il bunu Bakıda görürük. Hər il biz Xəzər dənizinin getdikcə daha da dayazlaşmasının şahidi oluruq. Dəniz kənarında, hətta burada Bakının mərkəzində yaşayan hər kəs bunu görür. Biz iqlim dəyişikliyinin fəsadlarını, təhlükəli fəsadlarını görürük, çaylarımızda su azalır, dağlarımızda qar



azalır, Xəzər dənizində suyun səviyyəsi azalır. Əgər biz enerji və əzmlə bu məsələ ilə məşğul olmasaq, hamımız əziyyət çəkəcəyik".

Prezident vurğulayıb ki, Azərbaycanın bərpaolunan enerji layihələri gündəliyi çox iddialıdır: "Beynəlxalq Maliyyə Korporasiyasının hesablamalarına əsasən, Xəzər dənizinin Azərbaycan sektorunda potensialı 157 giqavat təşkil edir. Biz artıq bu mühüm yolu qət etməyə başlamışıq. Biz ola bilsin ki, 10 ilə ölkədə bərpaolunan enerjidən maksimum dərəcədə istifadə etməyi və daxili bazarda təbii qaz istehlakını azaltmağı planlaşdırırıq".

İlham Əliyev iclasda səsləndirdiyi fikri bir daha diqqətə çatdıraraq qeyd edib ki, neft-qaz istehsalçısı, qazıntı yanacağına sahib olan ölkə olmaq bizim günahımız deyil. Bu xüsusda mövzu bir qədər dəyişilməlidir: "Düşünürəm ki, bu, bizim nailiyyətimizdir ki, biz neft və qaz ehtiyatları olan bir çox ölkənin üzləşdiyi "neft lənətinə" düçar olmamağı bacardıq. Biz nefti inkişafa çevirdik, sərvətin ədalətli paylanmasını təmin etməyə nail olduq. Son 20 ildə biz Azərbaycanda yoxsulluğun səviyyəsini 50 faizdən 5 faizə endirdik. Sizin Bakıda bütün gördükləriniz infrastrukturun tamamilə yeni inkişafı və insanların həyat səviyyəsinin yaxşılaşmasıdır. Əfsuslar olsun, indi deyirlər ki, qazıntı yanacağı təhlükəlidir, mənfidir və günah bu ehtiyata sahib olan ölkələrdədir. Mənim mesajım ondan ibarət idi ki, bizə gördüyümüz işə görə, gəlirlərdən insanların ehtiyaclarını təmin etmək və yaşıl enerji gündəliyinə təkan vermək üçün necə istifadə etdiyimizə görə qiymət verin. Ümidvaram ki, mesajım eşidiləcək".

## Müxtəlifliyin qorunması: islamofobiya ilə mübarizə

### Bakıda beynəlxalq elmi konfrans keçiriləcək




8-9 mart tarixlərində Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi (BBMM), Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi (BMTM), G20 Dinlərarası Dialoq Forumu və Bakı Təşəbbüs Qrupunun birgə təşkilatçılığı ilə "Müxtəlifliyin qorunması: 2024-cü ildə islamofobiya ilə mübarizə" mövzusunda beynəlxalq elmi konfrans keçiriləcək.

Tədbir İslamofobiya ilə Beynəlxalq Mübarizə Gününə (15 mart) həsr olunub. Martın 5-də bununla bağlı mətbuat konfransı təşkil edilib.

BMTM idarə heyətinin sədri Fərid Şəfiyev bildirib ki, konfransda dünyanın 32 ölkəsindən alimlər, beynəlxalq təşkilatların ekspertləri, din xadimləri və qeyri-hökumət təşkilatları nümayəndələrinin iştirakı gözlənilir. Bakıda ikinci dəfə təşkil olunacaq bu tədbir Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında mühüm rol oynayacaq.

Qeyd olunub ki, uzun illərdir Azərbaycan islamofobiyanın fəsadları ilə üzləşib, hazırda Qərb mediası və siyasətçiləri tərəfindən ölkəmizə qarşı aşkar qərəzli kampaniya həyata keçirilir və konfransın bir hədəfi də bu mənfi tendensiyalara təkan verən siyasi, iqtisadi, mədəni, diskriminativ faktorların müəyyən edilməsi və onlara qarşı ortaq strategiyanın formalaşdırılmasıdır. Azərbaycanın artıq beynəlxalq münasibətlərdə orta güc kimi çıxış etdiyini deyən Fərid Şəfiyev qeyd edib ki, bu il ölkəmiz COP29 və digər qlobal əhəmiyyətli tədbirlərə ev sahibliyi edəcək.

Konfransın əhəmiyyətini qeyd edən BBMM-in icraçı direktoru Rəvan Həsənov isə bəzi qüvvələrin İslam adı altında öz məkrli məqsədlərini həyata keçirməyə çalışdıqlarını diqqətə çatdırıb. Bildirib ki, Azərbaycan isə hər zaman dini ayrı-seçkiliyin əleyhinə olub və bu siyasətini davam etdirir. İslamofobiya ilə bağlı ikinci konfrans zamanı mövzu ətrafında ciddi müzakirələrin, açıq dialoqların aparılması, araşdırma materiallarının təqdimatları üçün platforma təmin ediləcək.

Dövlətimizin dini inanclara çox həssaslıqla yanaşdığını, qlobal problemlərə münasibətinin ədalət çərçivəsində olduğunu vurğulayan Rəvan Həsənov konfransın təşkilində məqsədin Qərb ölkələrinin islamofobiya ilə bağlı çirkin niyyətlərini ifşa etmək olduğunu deyib.

Qeyd edək ki, İslamofobiya ilə Beynəlxalq Mübarizə Günü barədə ilk dəfə 2020-ci il noyabrın 27-28-də İslam Əməkdaşlığı Təşkilatı Xarici İşlər Nazirləri Şurasının Nigerin Niamey şəhərindəki toplantısında qərar verilib. BMT Baş Assambleyası isə 2022-ci ildə 15 martı İslamofobiya ilə Beynəlxalq Mübarizə Günü elan edib.

## "Dinlərarası harmoniya" festivalı

Azərbaycanda fəaliyyət göstərən dini qurumların təşkilatçılığı ilə martın 8-də "Dinlərarası harmoniya" festivalı keçiriləcək.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsindən bildiriblər ki, ölkəmizdə mənəvi dəyərlərin, tolerant və multikultural ənənələrin inkişafı və təbliği məqsədilə keçirilən festivalda Qafqaz Müsəlmanları İdarəsi, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası, Dağ və Avropa yəhudiləri, Roma Katolik Kilsəsinin Apostol Prefekturası, Azərbaycan Bibliya Cəmiyyəti, Azərbaycan Bəhailəri Dini Mərkəzi, Krişna Şüuru və digər dini qurumların fəaliyyətini əks etdirən təqdimatlar olacaq. Tədbirdə fotosərgi, sənədli filmlər, videoçarxlar və musiqi proqramı nümayiş olunacaq.

Festivala martın 8-9-da Bakıda keçiriləcək "Müxtəlifliyin qorunması: 2024-cü ildə islamofobiya ilə mübarizə" adlı konfransda iştirak edəcək xarici qonaqlar da qatılacaq.

## Kino ittifaqları birləşdi – kinomuz üçün xeyirli olsun!

əvvəli səh. 1-də

Azərbaycan Kinematoqrafçılar İttifaqına sədr seçilən Rasim Balayev çıxış edərək ona etimad göstərənlərə təşəkkürünü bildirib.

"Şəfiqə Məmmədovanın namizədliyini geri götürməsini gözləmirdim, çox sağ olsun", – deyə o əlavə edib.

Xalq artisti milli kinonun mövcud durumuna da toxunub: "Təəssüf edirəm ki, ömrümün bu vədəsində, yaşlı vaxtımda kinomuz belə bir böhran yaşayır. Amma bizi yaşadan kinodur. Və biz o kinonu birliyimizlə yaşatmalıyıq. Baxın, mənim ayağımda hazırda problem var. Axsayıram. Bu zədə kinoda olub. Biz hamımız ömrümüzü kinoya qurban vermişik. Azərbaycan kinosu tənəzzül edə bilər, olsun, amma əminəm ki, biz kinomuzu yenidən relsinə salacağıq...".

Konfransda birləşmiş Azərbaycan Kinematoqrafçılar İttifaqının yeni idarə heyəti seçilib. İdarə heyətinin tərkibində Xalq artistləri Şəfiqə Məmmədova, Vaqif Mustafayev, Xalq yazıçısı Anar da daxil olmaqla təxminən 30 nəfərin adı təsdiqlənib.



## İşğaldan azad olunmuş ərazilərdə inventarizasiya

"Böyük Qayıdış" I Dövlət Proqramının icrası üçün 2022–2026-cı illərdə təqribən 32 milyard manat məbləğində vəsait tələb olunur. 2021–2023-cü illərdə dövlət büdcəsindən bu məqsədlə 12,1 milyard manat vəsait ayrılıb.

Bu barədə Nazirlər Kabinetinin 2023-cü ildə fəaliyyəti haqqında hesabatda bildirilir.

Hesabata əsasən, işğaldan azad olunmuş ərazilərdə dəymiş ziyanın müəyyən edilməsi məqsədi ilə rayon icra hakimiyyətinin, mərkəzi icra hakimiyyətləri və digər dövlət müəssisə və təşkilatlarının nümayəndələrinin iştirakı ilə 2023-cü il ərzində QRGS üzərindən 968 daşınmaz əmlak (bina və tikili) barədə arxiv məlumatları (sənədləri) rəqəmsallaşdırılıb, həmçinin 1132 bina və tikili ərazilərdə aparılan inventarizasiya nəticəsində təsbit edilib.

Laçın rayonu ərazisində təmir olunan 367 fərdi yaşayış evinin və 144 mənzilin, Zabux kəndində yeni tikilən 223 fərdi yaşayış evinin və Şuşa şəhərində 223 mənzilin texniki pasportu hazırlanıb.

Qeyd edilib ki, Cəbrayıl, Qubadlı, Kəlbəcər, Laçın, Zəngilan, Xocavənd, Ağdam rayonları üzrə arxiv sənədlərinin mövcud tikililərə bağlantısı işləri aparılır, yaranan uyğunsuzluqlar araşdırılaraq rayon icra hakimiyyəti nümayəndələrinin iştirakı ilə dürüstləşdirilib.

Əmlak Məsələləri üzrə Dövlət Komitəsinin işçi qrupları tərəfindən 2023-cü il 30 dekabr tarixinədək Xankəndi şəhəri üzrə 307, Xocalı rayonu üzrə 219, Xocavənd rayonu üzrə 183, Ağdərə şəhəri üzrə 71, Kəlbəcər rayonu üzrə 56, Ağdam rayonu üzrə 9, Tərtər rayonu üzrə 37 obyekt olmaqla, ümumilikdə 882 obyektə baxış keçirilib, həmin obyektlərin əsas vəsaitləri inventarlaşdırılıb, foto və video materialları toplanıb, qapıları surğuclanıb. 53 obyektin mühafizəsi təmin edilib.

Nazirlər Kabinetinin hesabatına əsasən, Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti işğaldan azad edilmiş ərazilərdə tarix və mədəniyyət abidələrinin inventarizasiyası işini ötən il də davam etdirib.

Hesabatda qeyd olunur ki, ötən il ölkənin müxtəlif rayonlarında yerləşən ümumilikdə 2 mindən çox tarix və mədəniyyət abidəsi barədə əldə olunan məlumatlar təhlil edilib. Təhlil nəticəsində məlum olub ki, ilkin mərhələdə 150 abidədə müvafiq olaraq bərpa-konservasiya işləri görülməlidir.

## Xankəndi xunta rejiminin binalarından təmizlənir

əvvəli səh. 1-də

Mənfur düşmənin daha bir tikilisi – üstdən baxdıqda xaç formasında inşa edilmiş "veteranlar" binasının da sökülməsi işlərinə başlanılıb. Hansı veterandan söhbət gedir, buna Ermənistan rəhbərliyi cavab verməlidir. Lakin onlara bir daha xatırlatmaq lazımdır ki, həyasızcasına başqa dövlətin ərazisinə soxulub, orada kütləvi qırğınlar, vandalizm aktları törədən, separatizm siyasəti həyata keçirənlərə hansı üzlə veteran adı veriblər?! Artıq illərlə törətdikləri və rəhbərlik etdikləri cinayət əməllərinə görə onların qanun qarşısında cavab vermək zamanıdır...

Ulularımızın bina etdiyi, tarixi yurd yerimiz Xankəndi qarşıdakı Novruza – yeni günə, yeni ilə otuzillik işğalın kirpasından, xuntaçı daşqalağından da təmizlənərək gedir...

# 30 mövsüm səfərdə oynasa da...

## “Qarabağ” Futbol Klubu haqqında sənədli filmin təqdimatı

*əvvəli səh. 1-də*

Nümayişdən sonra çıxış edən “Qarabağ” Futbol Klubunun prezidenti Tahir Gözəl ölkə başçısı İlham Əliyevin komandaya göstərdiyi diqqət və qayğıdan danışıb. Ekran əsərinin ərsəyə gəlməsinə görə Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyevaya və filmin yaradıcı kollektivinə təşəkkürünü bildirib.






“Qarabağ” Futbol Komandasının baş məşqçisi Qurban Qurbanov film barədə fikirlərini söyləyib: “Filmi izləyərkən bir daha əmin oldum ki, mənim çox güclü futbol kollektivim var. Mən komandada döyüşçü ruhunu hər zaman saxlamaq istəyirəm. Necə ki, Ali Baş Komandan İlham Əliyev 44 günlük Vətən müharibəsinin hər günündə bu ruhla Zəfər qazandı. “Qarabağ” Futbol Komandası bundan sonra da Azərbaycanı layiqincə təmsil etməyə davam edəcək”.

Çıxışlardan sonra “Qarabağ” Futbol Klubu adından Arzu Əliyevaya xatirə hədiyyəsi təqdim edilib.

2023-cü ildə lentə alınan film Azərbaycan futbolunun şöhrətini dünyaya tanıdan Ağdamın “Qarabağ” klubunun tarixindən, nailiyyətlərindən bəhs edir.

Yaradıldığı Ağdam şəhəri 1993-cü ildə işğal olunduqdan sonra köçkün durumuna düşən komanda bütün oyunlarını “səfərdə” oynasa da, Azərbaycanın ən uğurlu futbol klubuna çevrilib. Ekran əsərində klubun fəaliyyətə başlaması və formalaşması, doğma stadionundakı son oyunlarının düşmənin hücum təhlükəsi altında keçirilməsi, habelə fəaliyyəti dövründə klubu tərk etməyən fədakar məşqçi və futbolçular, doğma komandanı addımbaaddım izləyən azarkeşlərin təəssüratları əks etdirilir.

Qeyd edək ki, Ağdamda peşəkar futbol komandası 1951-ci ildə şəhər stadionu istifadəyə veriləndən sonra formalaşıb. Komanda əvvəl “Məhsul” adı ilə çıxış edib, 1982-ci ildən 1987-ci ilə qədər isə “Kooperator” adı ilə yarışlara qatılıb. 1988-ci ildən “Qarabağ” adını daşıyır.

Müstəqillik dövründə Azərbaycanın ən titullu futbol komandası kimi “Qarabağ” FK 10 dəfə Azərbaycan çempionu olub. 8 dəfə Avropa Liqası, 1 dəfə Çempionlar Liqası, 1 dəfə Konfrans Liqasının qrup mərhələsində iştirak edib. Çempionlar Liqasının qrup mərhələsinə vəsiqə qazanmış ilk və tək Azərbaycan klubudur.

Üç hissədən ibarət film “Qarabağ” komandasının hekayəsidir. Vətənindən didərgin düşsə də, ayaqda qalmaq və sonda doğma yurda qayıtmaq arzusunu itirməyən əyalət klubunun ölkənin əsas futbol komandasına çevrilməsinin ekran təcəssümü böyük maraqla izlənilib.

**Nurəddin**

# Teatr Xadimləri İttifaqında “Baxış”a çıxanlar

*əvvəli səh. 1-də*

Ardınca “Baxış – 4” festivalının proqramındakı ilk tamaşa – “Gözəllik kraliçası” nümayiş olundu.

İngilis dramaturq Martin MakDonaxın “Lineynin gözəllik kraliçası” əsəri (“Lineynin trilogiyası”ndan) əsasında səhnələşdirilən tamaşanın quruluşçu rejissoru Könül Şahbazova, musiqi tərtibatçısı Qurban Əhmədovdur. Rolları Gülər Ləzgiyeva, Sovqat Səmədova, Mehman Piriyev və Toğrul İsabəyli ifa edirdilər.





Pyesin süjet xəttində Meq adlı 70 yaşlı xudbin və hiyləgər anasına qulluq edən 40 yaşlı ərə getməmiş qızı Morin Folanın taleyi dayanır. Morinin bacıları ərə gedərək bu aqibətdən canlarını qurtarıblar. Keçmişdə ruhi xəstəliyi ilə əlaqədar olaraq xəstəxanada yatan Morin anasına tablaşmağa məcburdur. Onları birləşdirən məhkumiyyətdən başqa bir şey deyil. Amma o həm də hesab edir ki, anası olmasaydı, o daha xoşbəxt olardı. İngiltərədən yenicə gəlmiş Pato Dulin keçmiş sevgilisi Morinin həyatına rəng qatmağa çalışsa da, heç nə alınmır. Morin yenə tək qalır və nəticədə bütün intiqamını illərlə saxladığı kininə bələyərək anasından çıxır, onu boğur. Sözsüz ki, tənhalıq içində yalnız qalan Morin bədbəxtlik içərisində taleyi ilə təkbətək qalır.

Ağır mövzuya yenilikçi baxış sərgiləyən tamaşanın rejissor təqdimatı və buna adekvat aktyor oyunu yaddaqalan oldu.

***

İlk günün ikinci tamaşası da məlum mövzu ətrafında idi. Fransa-Belçika yazıçısı Erik-Emmanuel Şmittin “Oskar və çəhrayı xanım” romanı əsasında hazırlanan “Oskar” tamaşası nümayiş olundu.

Ağasəlim Feyzullayevin quruluş verdiyi səhnə işinin musiqi tərtibatçısı Zaur Rəşidovdur. Rolları Əli Nurzadə və Aynur Mustafayeva ifa edirdilər.

Əsər xərçəng xəstəliyindən əziyyət çəkən on yaşlı uşağın həyatından, xəstəxanada keçirdiyi vaxtdan, ona baxıcılıq edən çəhrayı geyimli Roza nənə ilə münasibətlərindən bəhs edir.

Oskar optimist, həyatsevər olsa da, artıq onun üçün hər şeyin geridə qaldığını anlayır və bu onun özündən başqa doğmasına çevrilən Roza nənəni çox üzür. Ölümünə günlər qalan Oskar nağıllara inanmaq istəyir və Roza nənənin ona danışdığı nağıllarla özünə çəhrayı dünya yaradır.

Özünü 15, 20, 30 yaşında təsəvvür edən Oskar məktublar yazmağa başlayır. 14 məktub yazaraq özündən sonra iz qoymağa çalışır, həyatla rəngli şarların, yarıqaranlıq və soyuq xəstəxana palatası kimi təsvir olunan otağa həyatsevərlik bəxş edən işıqların müşayiəti ilə ömür səhnəsindən enir.

Məhdud məkana uyğun rejissor həlli diqqətəlayiq idi və tamaşaçılar tərəfindən rəğbətlə qarşılandı.

***

“Baxış – 4” festivalının daha dörd tamaşası 6 və 7 martda nümayiş olunacaq.

Festivalın nəticələri 10 mart – Milli Teatr Günündə açıqlanacaq və qaliblərə mükafatlar veriləcək.

**Həmidə**

# Gənc müğənninin solo konserti

Rəşid Behbudov adına Dövlət Mahnı Teatrında teatrın solisti Rövşən Qəhrəmanovun solo konserti keçirilib.

Fevralın 29-da teatrın ansamblının müşayiəti ilə gerçəkləşən musiqi axşamında müğənni maraqlı proqramla çıxış edib.

Konsertdə teatrın bədii rəhbəri Xalq artisti Salman Qəmbərov və qarmon ifaçısı, Xalq artisti Ənvər Sadıqov da gənc solistə dəstək olaraq onunla eyni səhnəni bölüşüblər.

Müğənninin ifasında xalq və bəstəkar mahnıları tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.



# Mədəniyyətin inkişafında cəmiyyətin sahəyə münasibəti də önəm kəsb edir

## Paytaxtın mədəniyyət müəssisələrinin fəaliyyəti üzrə ictimai dinləmə

Mədəniyyət Nazirliyi yanında İctimai Şura tərəfindən martın 1-də Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin tabeliyindəki müəssisələrin fəaliyyəti üzrə ictimai dinləmə keçirildi.

Beynəlxalq Muğam Mərkəzində təşkil edilən tədbirdə Milli Məclisin Mədəniyyət komitəsinin sədri Fazil Mustafa, İctimai şuranın sədri millət vəkili, akademik Nizami Cəfərov, baş idarənin tabeliyində fəaliyyət göstərən müəssisələrin rəhbər və əməkdaşları iştirak edirdilər.

Mədəniyyət komitəsinin eksperti Əkbər Qoşalının moderatorluğu ilə keçirilən dinləmədə əvvəlcə Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin rəisi İbrahim Əliyev qurumun şəbəkəsinə daxil olan mədəniyyət müəssisələri, fəaliyyət istiqamətləri barədə ətraflı məlumat verdi.

Diqqətə çatdırdı ki, baş idarə ümumilikdə 170 müəssisəni əhatə edir: 36 uşaq musiqi və incəsənət məktəbi, 4 konsert teatr təşkilatı, 11 Mərkəzləşdirilmiş Kitabxana Sistemi (o cümlədən 63 kitabxana filialı), M.Ə.Sabir adına Şəhər Kütləvi Kitabxanası, 44 mədəniyyət evi, sarayı, mərkəzi və klubu, 6 muzey və 3 Heydər Əliyev Mərkəzi, bu müəssisələrin maliyyə-təsərrüfat fəaliyyətlərini əlaqələndirən 2 maliyyə və iqtisadi regional bölmə. Baş idarənin tabeliyində olan mədəniyyət evləri və klublarda 21 xalq kollektivi, o cümlədən 9 xalq teatrı, 2 folklor ansamblı, 2 xalq rəqs ansamblı, 8 xalq çalğı alətləri ansamblı, 93 bədii özfəaliyyət kollektivi və dərnək mövcuddur.




Milli Məclisin Mədəniyyət komitəsinin sədri Fazil Mustafa çıxış edərək müasir dövrdə cəmiyyətin mədəniyyətə münasibətinin böyük əhəmiyyət kəsb etdiyini dedi. Bildirdi ki, mədəniyyətin cəmiyyətdə dəyər qazanmasında insanların yanaşmasının mühüm təsiri var: “Bədii-estetik zövqü formalaşdıran insanların sayı azaldıqca cəmiyyətdə intellektual səviyyə də aşağı düşür. Sonradan bu səviyyəni bərpa etmək uzun zaman alır və çətin olur. Prezident İlham Əliyevin də vurğuladığı kimi, bu gün bizə yeni ideyalar lazımdır. Bu ideyalar təkcə iqtisadi-siyasi sahədə deyil, həmçinin mədəniyyət və təhsildə də özünü büruzə verməlidir. İnsanların sosiallaşması üçün mədəni səviyyəni yüksək səviyyədə saxlamaq lazımdır. Xüsusilə, regionlarda bu sahəyə diqqət yetirilməlidir”.

Digər çıxışlarda mədəniyyət sahəsində gənclərə göstərilən diqqət və qayğıdan, incəsənət təhsilinin problemləri, baş idarənin tabeliyində fəaliyyət göstərən qalereya, teatr, kitabxana, musiqi və incəsənət məktəblərin iş prinsipləri, qanunvericilikdə nəzərdə tutulan müddəaları əsas tutmaqla yeniliklərin tətbiqi, sahə üzrə mövcud problemlərdən söz açıldı. İştirakçılar mövzular üzrə fikir və təkliflərini bölüşdülər.

Sonda çıxış edən akademik Nizami Cəfərov İctimai Şura tərəfindən qeyd olunan məsələlərlə bağlı müzakirələrin keçiriləcəyini diqqətə çatdırdı.

**Lalə Azəri**

# Musiqi məktəbində “Baharım” konserti

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin tabeliyində fəaliyyət göstərən Rəşid Behbudov adına 2 nömrəli onbirillik Musiqi məktəbində Əməkdar müəllim Səidə Göyçayskayanın xor sinfinin “Baharım” adlı hesabat konserti keçirilib.



Konsertdə kiçik və orta yaş kateqoriyasından olan qruplar, vokal kvarteti və məktəbin birləşmiş xoru çıxış edib.

Musiqi axşamında Azərbaycan və xarici ölkə bəstəkarlarının müxtəlif janrda əsərləri səsləndirilib.

Konsert dinləyicilər tərəfindən maraqla qarşılanıb.

# Ədəbiyyat İnstitutunun 90 illik yubileyi qeyd olunub



Martın 4-də Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Rəyasət Heyətinin böyük akt zalında Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun 90 illiyinə həsr olunmuş “Ədəbiyyatşünaslıq elminin baş qərargahı: ənənələr, mərhələlər və çağırışlar” mövzusunda yubiley tədbiri keçirilib.

Əvvəlcə tədbir iştirakçıları Ədəbiyyat İnstitutunun nəşrlərindən ibarət sərgiyə baxış keçiriblər.

AMEA-nın prezidenti, Ədəbiyyat İnstitutunun direktoru akademik İsa Həbibbəyli tədbiri açaraq Azərbaycanda ədəbiyyatşünaslıq tədqiqatlarının tarixindən bəhs edib. Bildirib ki, Orta əsrlərin ədəbiyyat təzkirələri forma və məzmununa görə dövrün ədəbiyyat antologiyaları və ədəbiyyat tarixi materialları rolunu oynayıb. Azərbaycanda peşəkar ədəbiyyatşünaslıq XIX əsrin ikinci yarısında Mirzə Fətəli Axundzadə ilə başlayıb. Mirzə Fətəli təkcə Azərbaycan dramaturgiyasının və bədii nəsrinin deyil, həm də professional ədəbiyyatşünaslığın banisidir: “Lakin etiraf etmək lazımdır ki, Azərbaycanda ədəbiyyatşünaslıq müstəqil və sistemli elm sahəsi kimi XX əsrin əvvəllərində formalaşıb. Görkəmli ədəbiyyatşünas və böyük ictimai xadim Firidun bəy Köçərlinin bu dövrdə yazdığı məşhur “Azərbaycan ədəbiyyatı tarixi materialları” adlı çoxcildlik əsəri Azərbaycanda professional ədəbiyyatşünaslığın ən mühüm nailiyyəti sayılmağa tamamilə layiqdir”.

1923-cü ildə Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin yaradılması, elmin digər sahələri ilə yanaşı, ədəbiyyatşünaslıq sahəsində də ilkin təşkilatlanmaya zəmin olub. 1929-cu ildə bu qurumu Azərbaycan Elmi-Tədqiqat İnstitutu əvəzləyib və onun strukturunda ədəbiyyatşünaslıq üzrə ayrıca istiqamət olub. 22 mart 1933-cü ildə SSRİ Elmlər Akademiyası Zaqafqaziya Filialının Azərbaycan Şöbəsində Ədəbiyyat sektoru təşkil edilib. Bununla gələcək Ədəbiyyat İnstitutunun əsası qoyulub. Tanınmış ədəbiyyatşünas Əli Nazimin rəhbərlik etdiyi sektorun bazasında 1935-ci ildə Ədəbiyyat İnstitutu təşkil olunub.

Sovet dövründə Ədəbiyyat İnstitutunda əldə edilən nəticələrdən bəhs edən İsa Həbibbəyli bildirib ki, 1957–1960-cı illərdə çapa hazırlanan 3 cildlik “Azərbaycan ədəbiyyatı tarixi” uzun dövr ərzində ölkəmizdə ədəbiyyatşünaslıq sahəsində mötəbər elmi mənbə kimi qəbul edilib. 1950–80-ci illərdə Ədəbiyyat İnstitutunda görkəmli elm xadimləri akademiklər Məmməd Arif Dadaşzadə, Məmməd Cəfər Cəfərov, Həmid Araslı, Kamal Talıbzadə, müxbir üzvlər Əziz Mirəhmədov, Yaşar Qarayev, professor Məmmədhüseyn Təhmasib tərəfindən ədəbiyyatşünaslıq elminin ayrı-ayrı sahələri üzrə elmi məktəblər yaradılıb.

Müstəqillik dövründə Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun fəaliyyəti və ədəbiyyatşünaslıq elminin inkişafı daha da şaxələnib. Akademik son 10 ildə institutda zəruri struktur islahatlarının aparıldığını, Nizamişünaslıq, Mühacirət ədəbiyyatı, Mətbuat tarixi və publisistika, Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı və digər şöbələrin, Füzulişünaslıq sektorunun yaradıldığını diqqətə çatdırıb. Bundan əlavə, Azərbaycan ədəbiyyatının dövrləşdirmə konsepsiyası müəyyənləşdirilib. Artıq 7 cildi nəşr olunmuş “Azərbaycan ədəbiyyatı tarixi” oncildliyi bu konsepsiya və elmi cəhətdən müəyyən edilmiş inkişaf mərhələləri əsasında təqdim olunur.

Ədəbiyyat İnstitutunda türk xalqları ilə geniş elmi-ədəbi əlaqələr qurulub, Əlişir Nəvai, Mehmet Akif Ərsoy mərkəzləri yaradılıb, Məhtimqulu Fəraqi mərkəzinin təşkili üzrə iş gedir.

Beynəlxalq ədəbiyyatşünaslıq layihələrinə də diqqət ayrılır. Bu yaxınlarda Ədəbiyyat İnstitutu, Şota Rustaveli adına Gürcü Ədəbiyyatı İnstitutu və Kembric Universitetinin ortaq elmi layihəsi olan “Nizami Gəncəvi və Şota Rustaveli” adlı monoqrafik tədqiqat ingilis dilində nəşr edilib.

Tədbirdə çıxış edən Azərbaycan Yazıçılar Birliyinin sədri Xalq yazıçısı Anar Ədəbiyyat İnstitutunun Azərbaycan ədəbiyyatşünaslıq elminin inkişafında mühüm rol oynadığını, ədəbiyyatımızın çoxəsrlik tarixinin dərin və əhatəli öyrənilməsi, çağdaş ədəbi proseslərin, dünya ədəbiyyatına, ədəbi əlaqələrə dair aktual məsələlərin müntəzəm izlənilməsi və araşdırılması kimi vacib istiqamətlərdə əhəmiyyətli nəticələr əldə etdiyini bildirib.

Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının (TÜRKSOY) baş katibi Sultan Raev Ədəbiyyat İnstitutunu tədqiqat ənənələri, görkəmli alimləri və çoxsaylı yetirmələri ilə Türk dünyasının mühüm elm mərkəzlərindən biri kimi xarakterizə edib. Baş katib akademik İsa Həbibbəyliyə TÜRKSOY-un “Şərəf” nişanını təqdim edib.

Daşkənd Özbək Dili və Ədəbiyyatı Universitetinin rektoru akademik Şuxrat Siracəddinov isə çıxışında bildirib ki, bu gün Ədəbiyyat İnstitutu iki ölkə alimlərinin əməkdaşlığına mühüm töhfə verir.

Milli Məclisin deputatı Xalq şairi Sabir Rüstəmxanlı, Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid, Avrasiya Yazıçılar Birliyinin sədri Yaqub Öməroğlu və digər çıxış edənlər Ədəbiyyat İnstitutunun kollektivinə təbrik və ürək sözlərini çatdırıblar.

## Şəki teatrında uşaqlar üçün yeni tamaşa

Şəki Dövlət Dram Teatrında Novruz bayramı münasibətilə uşaqlar üçün dramaturq Mehman Musabəylinin "Ana keçi ilə canavarın davası" ssenarisi əsasında nağıl-tamaşa hazırlanır.



Teatrdan bildirilib ki, tamaşanın quruluşçu rejissoru və baletmeysteri Elvin Nuri, quruluşçu rəssamı Mənsur Əzizli, geyim üzrə rəssamı Günay Hidayətova, musiqi tərtibatçısı Zeynəb Xəlilovadır. Rolları Əməkdar artist Rəhim Qocayev, aktyorlar Xəyal Salahov, Rəşad Rüstəmov, Qurban Rəsulov, Nərmin Abbasova, Nazilə İmamhüseynova, Fidan Lətifova, Günay Novruzəliyeva, Rəsul Məmmədrəhimov, Gülxar İmamhüseynova, Rəşid Mirizadə, Nuranə Mirzəliyeva, Pərviz İsmayılov, Elvin Mabudov, Azad Məmmədov, Nərmin Nəbiyeva və Aytac İsmayılova ifa edirlər.

Səhnə əsəri martın 19-dan 26-dək (gün ərzində üç seans) nümayiş olunacaq.

## Qaxlı kuklaçıların bayram proqramı

Qax Dövlət Kukla Teatrı Novruz bayramı münasibətilə uşaqlar üçün maraqlı və əyləncəli proqram hazırlayır.



Uşaqlar əvvəlcə Novruzun personajları olan Kosa, Keçəl və Bahar qızının iştirakı ilə hazırlanmış kompozisiyaya tamaşa edəcəklər. Sonra onlar Əzizə Əhmədovanın "Necə boz ayı, aldı ev payı" əsəri əsasında səhnələşdirilən eyniadlı tamaşaya baxacaqlar.

Novruz şənliyinin quruluşçu rejissoru Yusif Abdurahmanov, rəssamı Fidan Səbrili, musiqi tərtibatçısı Nicat Fətəliyevdir.

Hazırda teatrın yaradıcı kollektivi 2024-cü ilin repertuar planına daxil edilən E.Çernyak və E.Gilodinin "Güllü və Güloğlan" əsəri əsasında səhnələşdirilən eyniadlı tamaşa üzərində məşqləri də davam etdirir.

## Gəncə səhnəsinə "Toros canavarı" çıxacaq

Gəncə Dövlət Dram Teatrında yeni tamaşanın məşqləri davam edir. Görkəmli türk ədibi Əziz Nesinin "Toros canavarı" komediyasına İstanbulun Maltepe teatrının baş rejissoru Kubilay Erdelikara quruluş verir.

Tamaşanın rejissoru Yusif Cəfərov, quruluşçu rəssamı Mustafa Mustafayevdir.

Səhnə əsərində əsas rolları Əməkdar artistlər İlham Hüseynov, Sevda Orucova, Novruz Cəfərov, Ramiz Vəliyev, aktyorlar Günay Cabbarova, Akif Səfərov, Emil Salmanov, Samir Abbasov, Vətən müharibəsi qazisi, aktyor Həsən Cəfərov və başqaları ifa edirlər.

Premyera 27 mart – Beynəlxalq Teatr Gününə nəzərdə tutulub.

## Naxçıvanda qadınların bayramına həsr olunmuş konsert

Martın 4-də Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrında Naxçıvan şəhər Uşaq musiqi və incəsənət məktəbi Xoreoqrafiya şöbəsinin 8 Mart – Beynəlxalq Qadınlar Gününə həsr olunmuş konserti keçirilib.



Konsertdən öncə tamaşaçılar teatrın foyesində hazırlanmış sərgi ilə tanış olublar.

Məktəbin müəllimləri – layihə rəhbəri və baletmeyster Fatimə Kazımova və Aysel Axundova çıxış edərək ölkəmizdə, eləcə də muxtar respublikada xoreoqrafiya sənətinin inkişaf yolu və məktəbin bu sahədəki uğurlarından bəhs ediblər. Vurğulanıb ki, məktəbin balaca xoreoqrafları ötən il ölkəmizdə ilk dəfə təşkil edilən Uşaq İncəsənət Festivalında qalib olublar.

Məktəblilərin ifasında rəqs nömrələrindən ibarət videoçarx nümayiş etdirilib. Konsertdə şagirdlər "Mirvari", "Turacı", "Üzümçülər", "Ay qaşı-gözü qara qız", "Tənzərə" yallısı, həmçinin xarici bəstəkarların əsərlərini təqdim ediblər.

Naxçıvan Dövlət Filarmoniyası Kamera orkestrinin solisti Emin Hüseynov "Ana" mahnısını səsləndirib və səhnəcik göstərilib.

## Mil-Muğan RMİ-nin kollektivi Şəkidə ekskursiyada

Mil-Muğan RMİ-nin kollektivi Mədəniyyət İşçiləri Həmkarlar İttifaqının region üzrə komitələrinin dəstəyi ilə Şəki rayonuna ekskursiya təşkil olunub.



İdarənin xidməti əhatəsindəki rayonlar üzrə ümumilikdə 4 avtobusla yola düşən kollektiv əvvəlcə Şəki Xan sarayını ziyarət edib.

Daha sonra Şəki-Zaqatala RMİ-nin bir neçə əməkdaşının iştirakı ilə "Yuxarı karvansara", Sənətkarlar evi, Şəki Miniatür Muzeyi, M.F.Axundzadənin Ev-Muzeyi ziyarət olunub.

Ziyarət zamanı qonaqlara qədim Şəkinin tarixi şəxsiyyətləri, abidələrin yaranma tarixi haqqında ətraflı məlumat verilib. Eyni zamanda ziyarətçilərə yapışqan və mismardan istifadə edilmədən minlərlə müxtəlifrəngli şüşə parçaları və taxtadan düzəldilən şəbəkələrin hazırlanması üsulu nümayiş etdirilib.

Şəkinin qədim tarixi, təbiəti ilə tanışlıq kollektivdə xoş təəssüratlar yaradıb.

# "Musiqi kimliyimiz" – aşıq sənətinə həsr olunan layihə həyata keçirilib

Xəbər verdiyimiz kimi, 29 fevral – 2 mart tarixlərində Gəncə-Daşkəsən Regional Mədəniyyət İdarəsi, Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyası (GDF) və Azərbaycan Aşıqlar Birliyinin (AAB) birgə təşkilatçılığı ilə "Musiqi kimliyimiz" layihəsi həyata keçirilib.





Layihə çərçivəsində ilk musiqi axşamında aşıqlar Elbrus Hüseynov və Şöhrət Kərimov "Aşıq Alının Zəngəzur səfəri" dastanını söyləyiblər.

İkinci gün GDF-nin Urban Mərkəzində Zərif Qayıbov adına 5 nömrəli Uşaq musiqi məktəbinin sazçalanlar ansamblının konserti olub.

Layihə üzrə martın 2-də "Azərbaycan aşıqları" mövzusunda elmi konfrans keçirilib. GDF-nin direktoru Əməkdar artist Ramil Qasımov qeyd edib ki, konfransın məqsədi tarixi ənənələri təbliğ etmək, zəngin irsi olan aşıq sənətini bugünkü nəslə çatdırmaqdır.

Aşıqlar Birliyinin sədri Əməkdar incəsənət xadimi, professor Məhərrəm Qasımlı layihənin əhəmiyyətini yüksək qiymətləndirib. AAB-nin sədri gələcəkdə aşıq sənətinin təbliği üçün bu cür layihələrin davamlı olmasını arzu edib.

Konfrans iştirakçıları müxtəlif aşıq ifaçılarının həyat və yaradıcılığı ilə bağlı məruzələrlə çıxış ediblər.

Günün sonunda GDF-də saz-söz sənətimizin görkəmli nümayəndəsi Aşıq Ələsgərin (1821–1926) xatirəsinə həsr olunmuş ədəbi-bədii gecə keçirilib. Gecədə Aşıq Ələsgərin nəticəsi, "Dədə Ələsgər Ocağı" İctimai Birliyinin sədri Xətai Ələsgərli layihənin təşkilatçılarına təşəkkürünü bildirib.

Aşıqların ifaları tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

# Torpağı Vətən edənlərin xatirəsi yaşadılır

Sumqayıt şəhərindəki Poeziya evində Vətən müharibəsi şəhidlərinə həsr olunan "Sənə xidmətdən qürur duyuruq, Vətən!" layihəsi çərçivəsində "Sizi xatırladır..." adlı sərgi-tədbir təşkil edilib.






Tədbir Sumqayıt Dövlət Rəsm Qalereyası, Azərbaycan Yazıçılar Birliyi (AYB) Sumqayıt bölməsinin birgə təşkilatçılığı və Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Sumqayıt şəhər komitəsinin dəstəyi ilə gerçəkləşib.

Şəhər İcra Hakimiyyətinin əməkdaşı Fərman Kazımov, AYB Sumqayıt bölməsinin sədri Gülnarə Camaləddin, Abşeron-Xızı RMİ-nin nümayəndəsi Bayram Cəfərli və başqaları çıxış ediblər.

Qalereyanın direktoru Ellada Həsənova layihənin əhəmiyyətini vurğulayaraq sərgi-tədbirin keçirilməsinə dəstək göstərənlərə təşəkkürünü bildirib.

Sonra tədbir iştirakçıları sərgi ilə tanış olublar. Eksponatlar arasında 30 şəhidin 100-ə yaxın şəxsi əşyası nümayiş etdirilib.

Hacı Zeynalabdin Tağıyev qəsəbə Ə.Bakıxanov adına 1 nömrəli Uşaq incəsənət məktəbinin kollektivi musiqi nömrələri səsləndirib.

***

Göyçayda şəhər 6 nömrəli tam orta məktəbdə "Şəhidlər muzeyi" yaradılıb. Muzeyin açılışında şəhid ailələri, Vətən müharibəsi iştirakçıları, qazilər, rayon rəsmiləri, məktəbin kollektivi, məzunları və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Çıxışlarda muzeyin Vətənimizin müdafiəsi uğrunda canından keçən şəhidlərin xatirəsinə ehtiramın ifadəsi olduğu vurğulanıb.

Şagirdlərin hazırladığı ədəbi-bədii kompozisiyaya nümayiş olunub.

## Cəbrayıllı şəhid haqqında kitabın təqdimatı

Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasında yazıçı-publisist Dürdanə Qaraşovanın Birinci Qarabağ müharibəsi şəhidi Çingiz Musa oğlu Qasımova (12.03.1970 – 23.12.1991) həsr olunmuş "Cəbrayılın ilk şəhidi" kitabının təqdimat mərasimi keçirilib.



Tədbirdə şəhidin ailə üzvləri, Cəbrayıl Rayon İcra Hakimiyyətinin nümayəndəsi, qazi Abbas Abbaslı, filologiya üzrə fəlsəfə doktorları Tariyel Abbasov, Şakir Əlifoğlu, Cəbrayıl rayon 5 nömrəli tam orta məktəbin direktoru Faiq Qurbanov, Tarix-Diyarşünaslıq Muzeyinin direktoru Aytən Fətullayeva və digər qonaqlar iştirak ediblər.

Kitabxananın direktoru Aslan Cəfərov Vətən uğrunda canını fəda etmiş Azərbaycan oğullarının qəhrəmanlıq dolu həyat hekayələrinin yeni nəsillərə örnək olduğunu bildirib, bu mövzuda qələmə alınan əsərlərin əhəmiyyətini qeyd edib.

Şəhidin ailə üzvləri Çingiz Qasımovla bağlı xatirələrini bölüşüblər.

Dürdanə Qaraşova kitabın ərsəyə gəlməsindən söz açıb. Sonda müəllif nəşri kitabxanaya hədiyyə edib.

## Salyanda yazıçı-publisistlərlə görüş

Salyan Tarix-Diyarşünaslıq Muzeyində Milli Məclisin deputatı, yazıçı-publisist Aqil Abbas və həyat yoldaşı, "Ədalət" qəzetinin baş redaktoru, yazıçı-publisist, Əməkdar jurnalist İradə Tuncayla görüş keçirilib.

Görüşdə rayon rəsmiləri, mədəniyyət işçiləri, yazarlar, jurnalistlər, təhsil işçiləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Çıxışlarda hər iki yazar yaradıcılıqları barədə məlumat verib, xatirələrini dilə gətirib, oxucuların suallarını cavablandırıblar.

Bədii qiraətçilər Xalq şairi Məmməd Arazın şeirlərini səsləndiriblər.

Sonda Aqil Abbas "Çayqırağında bitib, susuz qalan ağacların sağlığına" kitabını oxuculara təqdim edib.

# "Ana təbiəti qoruyaq!"



Xaçmaz Tarix-Diyarşünaslıq Muzeyi və Xaçmaz "Panda School"un birgə təşkilatçılığı ilə "Yaşıl dünya naminə həmrəylik ili"nə həsr olunmuş "Ana təbiəti qoruyaq!" adlı sərgi keçirilib.

Çıxışlarda qeyd olunub ki, bu gün bəşəriyyəti ən çox narahat edən məsələlərdən biri də ətraf mühit problemidir. Bu problemə qarşı mübarizəyə diqqətin artırılması, beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2024-cü ili ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edib. Prezidentin bununla bağlı sərəncamı Azərbaycanın qlobal təşəbbüslərə ilk qoşulan ölkələrin sırasında olduğunu bir daha sübut edir.

Tədbir iştirakçıları sərgi ilə tanış olublar.

***

Ağdam rayon MKS-nin Mərkəzi Kitabxanası (Quzanlı qəsəbəsi) "Yaşıl dünya naminə həmrəylik ili" münasibətilə orta məktəb şagirdləri ilə tədbir keçirib. Tədbir zamanı kitabxananın əməkdaşları tərəfindən məktəblilərə ölkəmizdə ətraf mühitin qorunması istiqamətində atılan addımlar haqqında məlumat verilib.



Şagirdlər "Yaşıl dünya naminə həmrəylik ili" adlı sərgiyə baxıblar.

# Maarifləndirici tədbirlər

Lerik Rayon İcra Hakimiyyəti, rayon Polis şöbəsi, Mədəniyyət Mərkəzi və Təhsil sektorunun birgə təşkilatçılığı ilə Lerik şəhər Arif Nuriyev adına 1 nömrəli texniki fənlər təmayüllü məktəb-liseydə narkomaniya ilə mübarizə mövzusunda maarifləndirici tədbir keçirilib. Çıxışlarda bildirilib ki, sağlam nəslin formalaşması ölkəmiz üçün başlıca vəzifələrdən biridir. Narkomaniya ilə mübarizə üçün bu sahədə maarifləndirmə işi də lazımi səviyyədə qurulmalıdır.

***

Quba-Xaçmaz RMİ-nin təşkilatçılığı ilə Quba rayon MKS-nin Mərkəzi Kitabxanası tərəfindən "Fövqəladə hallarda həyat təhlükəsizliyinin təmin edilməsi" adlı maarifləndirici tədbir keçirilib. Çıxışlarda fövqəladə halların təsnifatı, ölkəmiz üçün xarakterik olan fövqəladə hallar, o cümlədən yanğınların başvermə səbəbləri, elektrik təsərrüfatında yanğın təhlükəsizliyi, məişətdə qazdan təhlükəsiz istifadə, ildırım, sel və daşqın zamanı zəruri davranış qaydaları barədə ətraflı məlumat verilib.





***

Mərkəzi Aran RMİ-nin təşkilatçılığı ilə Ağdaş rayon Heydər Əliyev Mərkəzində Ümumdünya Mülki Müdafiə Günü (1 mart) ilə əlaqədar "Mülki müdafiə sahəsində innovativ texnologiyalar" mövzusunda tədbir keçirilib. Mülki müdafiə tədbirləri, bu sahədə Fövqəladə Hallar Nazirliyinin vəzifələri, fəaliyyəti haqqında çıxışlar olub. İştirakçıları maraqlandıran suallar cavablandırılıb.

**Hazırladı: N.Məmmədli**

# Bayramqabağı bayramlaşma

## Teatrlar 10 martı necə qeyd edəcəklər?



Martı, baharın ilk ayını sevməyən çətin tapıla. Xalqımızın birlik və bərabərlik, anamız təbiətlə əbədi sevdasının vüsalıdır, məncə, mart. Nə bilmək olar, bəlkə xalqın ziyalı, yaradıcı insanları əsr yarım öncə (1873) peşəkar milli teatrımızın təməlini qoyanda da Novruz ərəfəsini (10 mart) təsadüfən seçməyiblər.

Sözsüz ki, xalq teatrının, milli oyun mədəniyyətinin tarixi onun peşəkar səhnə dönəmindən çox-çox qədimdir. Ulularımız qədim zamanlarda odla, suyla, torpaqla, küləklə sirli təmasdaykən oyun mədəniyyətimizdəki "Xıdır Nəbi", "Sayaçı", "Novruz", "Kəvsəc", "Qodu-qodu", "Kosa-gəlin" kimi daha neçə-neçə tamaşalar, xalq ayin və oyunlarından bəhrələnən kütləvi həsbhal fürsətləri yaradıblar. Amma onun peşəkarlıq yolu, yəni səhnə tərtibatlı, rejissor yozumlu, aktyor mizanlı zühuru 151 il əvvəl başlayıb.

1873-cü ilin 10 mart tarixində Bakıda böyük maarifçi Həsən bəy Zərdabi və görkəmli yazıçı-dramaturq Nəcəf bəy Vəzirovun təşəbbüsü, aktyor Əsgər ağa Adıgözəlov (Gorani) və Realnı məktəbin şagirdlərinin iştirakı ilə Mirzə Fətəli Axundzadənin "Lənkəran xanının vəziri" komediyası səhnələşdirilib. Bununla təkcə Azərbaycanda deyil, bütün müsəlman Şərqində peşəkar teatrın təməli qoyulub...

Ənənəvi olaraq, teatr camesi və teatra sevdalı tamaşaçıların xüsusi qeyd etdiyi bu günü sənət ocaqları premyera, fərqli tədbirlərlə daha da yaddaqalan etmək, özlərinə bayram ovqatı yaşatmaq istəyirlər.

Gəlin, görək bu dəfə peşə bayramını teatrlarımız necə qeyd edəcək?

Akademik Milli Dram Teatrı tamaşaçılarını premyera – "Əsrə bərabər gün"lə salamlayacaq.




Dünyaşöhrətli qırğız yazıçısı Çingiz Aytmatovun məşhur romanı əsasında hazırlanan tamaşanın quruluşçu rejissoru və səhnə üçün işləyəni Əməkdar incəsənət xadimi Mehriban Ələkbərzadədir.

Azərbaycan Dövlət Akademik Musiqili Teatrı da, ənənəsinə sadiq olaraq, yenə 10 martda teatrsevərlərin görüşünə yeni tamaşa ilə gələcək. Saat 12:00-da "İki küpəgirən qarı" (Ə.Əlizadə, R.Sef, T.Karelina) musiqili nağıl-tamaşası balacaların ixtiyarına veriləcək. Həm ana dilimizdə, həm də rus dilində hazırlanan tamaşanın quruluşçu rejissoru Əhəd Hacıyevdir.

Akademik Opera və Balet Teatrı 10 martda "Trubadur" operasının növbəti tamaşasını (BMA-nın Opera Studiyasının səhnəsində) təqdim edəcək.

Akademik Rus Dram Teatrında milli koloritli səhnə əsəri – dramaturgiyamızın banisi M.F.Axundzadənin "Müsyö Jordan və dərviş Məstəli şah"ı yenidən zühur edəcək.

Dövlət Gənc Tamaşaçılar Teatrı uşaqlar üçün "Möcüzəli pillələr"i təqdim (saat 12:00) edəcək. Səhnə əsərinin müəllifi mərhum Xalq artisti Ağaxan Salmanlıdır.

Axşam seansında isə Xalq artisti Naibə Allahverdiyevanın "Gerçəkləşməyən arzular"ının benefisi olacaq. Əməkdar artist Nicat Kazımovun quruluşunda.

Yuğ Dövlət Teatrı M.Vişnekin əsəri əsasında səhnələşdirilən "Kloun Bizzz"i (quruluşçu rejissor Mikayıl Mikayılov) göstəriləcək.

30 yaşının həyəcanı ilə başı yubileyə qarışan mimçilər bu dəfə də bizi "Pantomima buketi"nə qonaq edəcəklər.




Azərbaycan Dövlət Kukla Teatrı da peşə bayramına premyera ilə gəlir. X.Əlibəylinin mənzum pyesi – "Dovşanın ad günü" kuklaçıların yeni yozumunda səhnəyə çıxacaq. Eyniadlı tamaşanın səhnələşdirmə və quruluş müəllifi Saida Haqverdiyevadır.

Bakı Uşaq və Gənclər Teatrında isə S.S.Axundovun eyniadlı əsəri əsasında İlhamə Əhmədovanın quruluş verdiyi "Qaraca qız"ın premyerası olacaq. Fransız yazarı R.Şartın "Arvadım olun" əsəri teatrın ikinci premyerasıdır və onun da nümayişi 11 martda nəzərdə tutulub. Tamaşanın quruluşçu rejissoru Elşən Zeynallıdır.

Milli Teatr Günündə bölgə teatrları "açıq qapı" aksiyaları keçirəcəklər. Teatrsevərlər yerlərdəki sənət ocaqlarında ödənişsiz tamaşa seyr edə biləcəklər.

Lənkəran Dövlət Dram Teatrında "The Müqəssir" (rejissor Abdulla Elşadlı), Şəki Dövlət Dram Teatrında "Ezop" (rejissor Mirbala Səlimli) tamaşaları təqdim ediləcək.

Mingəçevir Dövlət Dram Teatrının yaradıcı heyəti şəhər sakinlərində bayram ovqatı yaratmaq üçün karnavalsayağı tədbir də hazırlayıb. Martın 10-da "açıq qapı" günü çərçivəsində çıxışlar olacaq, rəqslər ifa olunacaq və tamaşalardan səhnəciklər göstəriləcək.

Qazax Dövlət Dram Teatrı Jalə İsmayılın "Ametist xanım və Apatit bəy" pyesi əsasında hazırlanan "Love butik" tamaşasının (rejissor Mirzə Nicat) premyerasını edəcək.

Füzuli Dövlət Dram Teatrında isə premyera olacaq. Şıxəli Qurbanovun "Olmadı elə, oldu belə" əsəri əsasında hazırlanan eyniadlı səhnə aktının quruluş müəllifi Asif Şirinovdur.

Bölgə kuklaçıları da xüsusi günü premyera ilə qeyd etməyə hazırlaşırlar.




Gəncə Dövlət Kukla Teatrında uşaq yazarı Aləmzər Əlizadənin "Balqabağın Ay yuxusu" pyesi əsasında hazırlanan eyniadlı tamaşanın (quruluş: teatrın baş rejissoru Şamil Məmmədli) premyerası baş tutacaq.

Qax Dövlət Kukla Teatrında da premyera var. Teatrın baş rejissoru Əməkdar artist Yusif Abdurahmanovun quruluşunda yerli dramaturq Osman Abdullayevin "Tülkü və quyruq" tamaşası təqdim olunacaq.

Salyan Dövlət Kukla Teatrının kollektivi isə tamaşaçılara mərhum kuklaçı, Əməkdar artist Ələkbər Hüseynovun "Xoşbəxtlik quşu" tamaşasını göstərəcək. Eyniadlı tamaşaya teatrın direktoru Əməkdar mədəniyyət işçisi Laləzar Hüseynova quruluş verib.

**Həmidə**

# "Orfey və Evridika" yenidən səhnədə

Azərbaycanın dünyada tanınan zəngin mədəniyyəti, incəsənəti nəsilləri bir-birini əvəzləyən dəyərli sənətkarların əməyi, zəhməti sayəsində böyük inkişaf yolu keçib. Bu gün də Azərbaycan incəsənətini, o cümlədən musiqi sənətini inkişaf etdirən, dünyada təbliğinə töhfə verən yaradıcı insanlarımız onların yolunun davamçılarıdır.

Onların arasında çoxşaxəli yaradıcılığı ilə tanınan Əməkdar artist, sənətşünaslıq üzrə fəlsəfə doktoru, Prezident mükafatçısı, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti İlham Nəzərovun adını xüsusi vurğulamaq istərdim. Opera və kamera ifaçısı, onlarla şagird və tələbə yetişdirən müəllim, Azərbaycan vokal ifaçılıq sənətinin tədqiqatçılarından biri, eləcə də beynəlxalq festival və digər tədbirlərin bədii rəhbəri və təşkilatçısı kimi fəaliyyət göstərən İlham Nəzərov usanmadan öz üzərində çalışaraq yeni uğurlara yol açır.



Martın 3-də bu uğurların sırasına daha biri yazıldı. Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının nəzdində fəaliyyət göstərən Opera studiyasında səhnələşdirilən K.V.Qlükün "Orfey və Evridika" operası Əməkdar artistlər İlham Nəzərov, Fəridə Məmmədova və beynəlxalq müsabiqələr laureatı Zümrüd Davudova kimi peşəkarların sayəsində tamaşaçılar tərəfindən yüksək qiymətləndirildi.

Əməkdar artist Yuri Lobaçev xoreoqraf kimi operaya yeni nəfəs bəxş etdi. İlk dəfə Evridika partiyasını səsləndirən F.Məmmədova bu partiyanın ondan öncəki ifaçılarından seçilirdi. Onun canlandırdığı Evridika daha zərif və nəcib idi. Operanın üçüncü pərdəsindəki "Che fiero momento" ariyası bəstəkarın üslub xüsusiyyətlərini tam əks etdirirdi. Orfeylə duet əzəmətli səslənirdi.

Orfey və Evridika rollarının xoreoqrafik təcəssümü – balet artistləri Nigar İbrahimova (Əməkdar artist) və Seymur Qədiyevin üçüncü pərdədəki dueti də tamaşaçıları valeh etdi.

Xormeyster, Əməkdar incəsənət xadimi Sevil Hacıyeva, hər zaman olduğu kimi, bu tamaşada da xorun mükəmməl səslənməsinə nail oldu. İstər birinci pərdədə, istərsə də digər hissələrdə fərqli vokal məktəblərinə malik xor artistlərinin birlikdə ahəng təşkil etməsi xüsusi qeyd edilməlidir.

Vurğulamaq istərdim ki, "Orfey və Evridika" operası ilk dəfə 2022-ci ildə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının səhnəsində Xalq artisti Kamilla Hüseynovanın verdiyi quruluşda Əməkdar artist Əyyub Quliyevin idarəsi altında səhnələşdirilib. Ümid edirəm ki, yüksək peşəkarlığa malik vokal və balet artistlərinin təfsirində yeni-yeni opera və baletlərin tamaşaçısına çevriləcəyik.

**Yulizana Kuxmazova**
**Əməkdar artist, sənətşünaslıq üzrə fəlsəfə doktoru**

# Dövlət Uşaq Filarmoniyası "Buratino" tamaşasını təqdim edib

Martın 2-də Azərbaycan Dövlət Uşaq Filarmoniyasının "Musiqili uşaq teatrı" görkəmli rus yazıçısı Aleksey Tolstoyun "Qızıl açar və yaxud Buratinonun macəraları" povesti əsasında hazırlanan "Buratino" nağıl-tamaşasını təqdim edib.

Tamaşanın quruluşçu rejissoru Ağasəlim Feyzullayev, bədii rəhbəri Nigar Zeynalova, səhnə tərtibatçısı Əməkdar incəsənət xadimi Dilarə Əliyeva, rəqslərin quruluşçusu Günel Təhməzova, xormeysteri Leyla Muradzadə, rəssamı Səriyyə Teymurova, musiqi tərtibatçısı Zaur Rəşidovdur.

Balaca aktyorlar tamaşanı həm məsuliyyətin verdiyi həyəcan, həm də sevinc hissləri ilə təqdim ediblər. Səhnə dekorasiyası, fon musiqisi, iştirakçıların qrimləri, geyimləri pərdələr açılan kimi zalda əyləşən balaca tamaşaçıları sanki nağıllar aləminə aparıb. Səhnə dekorasiyasında



təbii samandan, təbii ağac materiallarından istifadə olunub. Müxtəlif nağıl qəhrəmanları, onların rəngarəng rəqsləri və diqqətçəkən dekorasiya həlli uşaqlar tərəfindən alqışlarla qarşılanıb.

Heydər Əliyev – 101

# Mədəniyyətimizin böyük hamisi

## İllərin xronikasından (105)



Ümummilli lider Heydər Əliyev böyük siyasətdə olduğu bir qərinədən artıq dövrdə, doğma xalqının taleyində tarixi rol oynamaqla bərabər, mədəni irsimizin qorunması və zənginləşdirilməsi, milli incəsənətin, ədəbiyyatın inkişafı, respublikada mədəni-maarif işinin qabaqcıl səviyyədə təşkili sahəsində müstəsna xidmətlər göstərib. O hər zaman və hər yerdə Azərbaycan mədəniyyətinin böyük hamisi olub. 2023-cü ilin yanvarında dərcinə başladığımız və son bölümünü təqdim etdiyimiz illərin xronikasından seçmələr bunun sübutudur...

### 2003-cü il 20 mart

Prezident Heydər Əliyev Bakıda Novruz bayramı münasibətilə keçirilən ümumxalq şənliyində iştirak edib.

### 2003-cü il 29 mart

Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının binasında aparılan təmir-bərpa işlərinin gedişi ilə tanış olub. Binada milli memarlıq üslublarının qorunub saxlanılması işlərinə xüsusi diqqət yetirib.

### 2003-cü il 18 aprel

Prezident Sarayında "Qara nişanə" bədii filminin yaradıcı kollektivini qəbul edib. Görüşdə məlumat verilib ki, rejissor Vaqif Mustafayevin çəkdiyi film Sovet İttifaqının son illərində keçmiş müttəfiq respublikalarda, o cümlədən Azərbaycanda baş verən tarixi hadisələr haqqındadır. Heydər Əliyev filmdə bir sıra ölkələrin artistlərinin yer almasından məmnunluğunu bildirib.

### 2003-cü il 21 aprel

Respublika Sarayında Cəmşid Naxçıvanski adına Hərbi liseyin 30 illiyinə həsr olunmuş təntənəli mərasimidə nitq söyləyən zaman səhhəti anidən pisləşib. Bununla belə, o, yenidən səhnəyə qayıdıb və nitqini tamamlayıb. Bu, Heydər Əliyevin geniş auditoriya qarşısında son nitqi idi.

May ayının 4-dən 12-dək Heydər Əliyev Ankarada, "Gülhanə" Hərbi Tibb Akademiyasında müalicə kursu keçib.

### 2003-cü il 23 may

Yazıçı-publisist Elmira Axundovaya yubileyi (50 yaş) münasibətilə təbrik ünvanlayıb.

### 2003-cü il 27 may

Azərbaycan Xalq Cümhuriyyətinin 85 illiyi münasibətilə Azərbaycan xalqına müraciət edib. Müraciətdən sitat:

*"...Biz Azərbaycan Xalq Cümhuriyyətinin tarixini, onun görkəmli şəxsiyyətlərinin fəaliyyətini dərindən öyrənməli, ideyalarını təbliğ etməliyik. Cümhuriyyətin tarixi təcrübəsi göstərir ki, dövlət müstəqilliyini və suverenliyi əldə etmək kifayət deyil, həm də onu bütün vasitələrlə qorumaq və möhkəmləndirmək lazımdır. İndiki Azərbaycan dövlətinin yeritdiyi siyasət, qazanılan uğurlar belə bir fikri əminliklə söyləməyə əsas verir ki, Xalq Cümhuriyyəti dövründə itirdiyimiz müstəqilliyi bir də heç zaman əldən verməyəcək, onu qoruyub saxlayacaq, dönməz, sarsılmaz və əbədi edəcəyik...".*

### 2003-cü il 29 may

Azərbaycan ədəbiyyatının inkişafindakı böyük xidmətlərinə görə Elçin Əfəndiyevin "İstiqlal" ordeni ilə təltif edilməsi haqqında fərman imzalayıb. Xalq yazıçısını 60 illik yubileyi münasibətilə təbrik edib.

### 2003-cü il 16 iyun

Prezident Sarayında Azərbaycan Rəssamlıq Akademiyasının rektoru Xalq rəssamı Ömər Eldarovu qəbul edib. Akademiyanın binasında yenidənqurma işləri ilə bağlı əlavə vəsaitin ayrılması barədə tapşırıq verib.

### 2003-cü il 21 iyun

Mədəniyyət siyasəti üzrə milli debatların iştirakçılarına müraciət ünvanlayıb. Sitat: *"İnanıram ki, milli debatlar ölkəmizdə mədəniyyət siyasətinə dair strateji planların işlənib hazırlanmasına, bu sahədə dövlət və qeyri-hökumət təşkilatları arasında əlaqələrin inkişaf etdirilməsinə, informasiya-kommunikasiya texnologiyalarının tətbiqi işinin təkmilləşdirilməsinə səmərəli təsir göstərəcəkdir".*

### 2003-cü il 5 iyul

Azərbaycan aşıq sənətinin inkişafında böyük xidmətləri olan Aşıq Şəmşirin (Şəmşir Qurban oğlu Qocayev) 110 illik yubileyi haqqında sərəncam imzalayıb. Sərəncamla Xanlar (indiki Göygöl) rayonundakı musiqi məktəbinə Aşıq Şəmşirin adı verilib.

Səhnə fəaliyyəti ilə bağlı incəsənət xadimlərinə Prezident mükafatlarının verilməsi haqqında sərəncam imzalayıb.

Rusiya-Azərbaycan mədəni əlaqələrinin möhkəmləndirilməsindəki xidmətlərinə görə Tamara Sinyavskayanın "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında fərman imzalayıb. T.Sinyavskayanı 60 illik yubileyi münasibətilə təbrik edib.

### 2003-cü il 8 iyul

"Gülhanə" Hərbi Tibb Akademiyasında müayinədən keçmək üçün Ankaraya yola düşüb.

### 2003-cü il 6 avqust

Müalicəsini davam etdirmək üçün Ankaradan ABŞ-nin Klivlend şəhərinə gedib.

***

Avqust – oktyabr aylarında yubileyləri münasibətilə mədəniyyət, ədəbiyyat xadimlərinə Heydər Əliyevin təbrik məktubları göndərilib: Xalq artisti Yuli Qusman (4 avqust); Əməkdar incəsənət xadimi Vaqif Mustafayev (27 avqust); Dağıstanın Xalq şairi Rəsul Həmzətov (8 sentyabr); Xalq artisti Arif Məlikov (12 sentyabr); Turan xanım Cavid (1 oktyabr); Xalq şairi Məmməd Araz (13 oktyabr).

### 2003-cü il 1 oktyabr

Azərbaycan xalqına müraciətində 15 oktyabr prezident seçkilərində iştirak edə bilməyəcəyini və namizədliyini İlham Əliyevin xeyrinə geri götürdüyünü bəyan edib. Müraciətdən sitat: *"İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm...".*

### 2003-cü il 12 dekabr

Heydər Əliyev Klivlend klinikasında vəfat edib.

### 2003-cü il 15 dekabr

Respublika Sarayında Heydər Əliyevlə vida mərasimi keçirilib. Heydər Əliyev Fəxri xiyabanda dəfn olunub. Ruhu şad olsun...

**Hazırladı: Vüqar Orxan**
**(son)**

№18 (2083)
6 mart 2024
www.medeniyyet.az

Svetlana İsmayılova – 85

# İşıqlı insan

Hər kəs ömür yolunu özü müəyyənləşdirir. Amma məslək seçimi də təsadüfi deyil. Burda zəhmətdən, bilikdən başqa, insan xarakterinin, dünyagörüşünün, daxili dünyasının, duyğularının mütləq şəkildə rolu var. Elə buna görə də hər kəsin əməli düşüncəsinin, iç dünyasının cəmidir desək, yanılmarıq.

“İnsanın iç dünyası sifətinə, xarakterinə yansıyır” sözünü təsadüfi deməyiblər. Gözəl görən gözəl söyləyər, əməlləri, düşüncələri də gözəl olar. Gözəllik yalnız xarici görünüşdə deyil. O həm də insanın daxili saflığından, xoş arzularından mayalanır, qidalanır...

“Azərbaycanfilm” kinostudiyasında ssenarist, redaktor kimi çalışan, məzmunlu məqalələri ilə ədəbi mühitin diqqətini çəkən, uzun illər Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində Kinoşünaslıq və ekran dramaturgiyası kafedrasında baş müəllim, dosent vəzifələrində çalışan Svetlana İsmayılova da imza atdığı hər bir işində gözəllik təcəssüm etdirib, istedadlı mütəxəssis, mehriban insan kimi həmkarlarının, onu tanıyanların yaddaşında iz salıb.

İnsanı nəcib əməlləri yaşadır. Artıq iki ildir (2022-ci ilin 25 fevralından) aramızda olmayan Svetlana xanımı da həmkarları, dostları sənətdəki peşəkarlığı, yüksək mənəvi keyfiyyətləri, gözəl xüsusiyyətləri ilə xatırlayırlar. Onu tanıyanların hafizəsində nurlu, işıqlı insan kimi qalan Svetlana İsmayılovanın anadan olmasının 85-ci ildönümündə həyat yoluna qısa nəzər salaq.

### Onu hamı sevirdi

Xatirələr ömür kitabının səhifələridir. Vərəqlədikcə ora həkk olunanlar nostalji duyğular yaradır, insanın keçdiyi ömür yolu, məramı, həyat mövqeyi aydınlanır. Məmnunluq hissi doğuran xatirələrsə örnək timsallı ömürlərə ünvanlanır.

Svetlana İsmayılovanın belə örnək ömrünün başlıca xüsusiyyəti insanlığa verdiyi dəyəri, ətrafındakılara olan hörməti ilə bağlıdır. Həyatın ziqzaqlı dolanbaclarında, kələ-kötür yollarında zəhməti, biliyi sayəsində şəxsiyyətini, cəmiyyətdəki mövqeyini təsdiqləyən ziyalı xanım üçün fərdiyyətini tanıtmaq məqsəd yox, ruhundan mayalanan qismət idi. İşıqlı düşüncəsinə, əməlisalehliyinə, işgüzarlığına görə də hamı onu sevirdi.

Svetlana İsmayılova ömrünün 45-ci ilində həyatını kinostudiya ilə bağlayıb. 1984–2001-ci illərdə “Azərbaycanfilm” kinostudiyasının aparıcı redaktoru olub. Burada sənədli, bədii və animasiya filmləri şöbəsində, “Mozalan” satirik kinojurnalında ssenari müəllifi və redaktor kimi çalışıb. Filmlərin mətn düzülüşünün qüsursuzluğuna diqqət yetirib, məzmun tamlığına, axıcılığına, rəvan, aydın və anlaşıqlı şəkildə təqdim olunmasına imkan yaradıb. Eyni zamanda bir sıra sənədli, animasiya filmlərinin, “Mozalan” süjetlərinin müəllifi olub. 70-ə yaxın bədii filmi rus dilindən Azərbaycan dilinə tərcümə edib. Ssenariləri əsasında Azərbaycan alim və yazıçılarına həsr olunan silsilə sənədli (görkəmli alim, yazıçı, pedaqoq Əzizə Cəfərzadənin 70 illiyinə ithaf edilən “Ağ saçların işığı”, tarix elmləri doktoru Püstəxanım Əzizbəyova haqqında “Dünyanı gözəllik xilas edəcək” və s.) filmlər çəkilib. Ssenarisi əsasında ekranlaşdırılan “Anam Kür” (Ərzuman Məmmədova birgə) sənədli filminin yaradıcı heyəti 1996-cı ildə ekologiya sahəsindəki aktual məsələlərin, problemlərin kütləvi informasiya vasitələri ilə işıqlandırılmasına və fəal təbliğinə görə akademik Həsən Əliyev adına mükafata layiq görülüb.



Hər bir mövzuya dolğun yanaşma ekran qəhrəmanının həyat yolunu kino estetikası çərçivəsində təqdim etmək, haqqında danışacağın insanı yaxından tanımaq, yaşam tərzini, varlığını obrazlı şəkildə təqdim etmək deməkdir. Svetlana İsmayılovanın ssenariləri əsasında çəkilən filmlərdə əmək, elm, sənət adamlarının həyatı aydınlıqla çatdırılır, məzmunlu mətnlər ziyalı təfəkkürünün süzgəcindən keçirilərək əks olunur. Bu mənada məsləyini yüksək səviyyədə təqdim etmək, sənətsevərlərin rəğbətini qazanmaq illərin təcrübəsini ömür kitabının səhifələrinə fəxarət hissi ilə həkk etmək deməkdir.

Əməkdar incəsənət xadimi, kinorejissor Nizami Abbas onu belə xatırlayır: “Svetlana xanım kinonun ağır günlərində kinostudiyaya gəlmişdi. “Yaddaş” sənədli filmlər studiyasında redaktor kimi fəaliyyət göstərirdi. 1998-ci ildə kinorejissor Cəmil Fərəcov Xalq yazıçısı İlyas Əfəndiyevin həyat və yaradıcılığından, ictimai fəaliyyətindən bəhs edən “Sən həmişə bizimləsən” filmini çəkirdi. Mən həmin filmdə operator kimi çalışırdım. Filmin ssenarisini Mailə Muradxanlı Cəmil Fərəcovla birgə yazmışdı. Svetlana xanım filmin redaktoru idi. O, işini gözəl bilirdi və məsuliyyətlə yanaşırdı. Arası gözəl idi. Olduqca istiqanlıydı, hamıyla mehriban davranırdı. Onunla işləmək rahat idi. Buna görə də kinostudiyada hamı onun hörmətini saxlayırdı...”.

### Yazıb-yaratmaq eşqi

1939-cu il fevralın 26-da Bakıda dünyaya göz açan Svetlana İsmayılova hələ kiçik yaşlarından ədəbiyyata, sənətə maraq göstərib. Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Jurnalistika fakültəsini bitirib (1958). Tələbəlik illərindən mətbuatda müxtəlif mövzulu yazıları ilə çıxış edib, ədəbi mühitin diqqətini çəkib. Yazıb-yaratmaq eşqi onu bir gün də olsun rahat buraxmadığından jurnalist fəaliyyəti ilə yanaşı, bir neçə kitab qələmə alıb. “Çinarım mənim”, “Vaxt var idi…” kitabları oxucular tərəfindən maraqla qarşılanıb.

Azərbaycan Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutunda kino sənəti üzrə dissertant olub, “Azərbaycan gəncləri” qəzetində ədəbi işçi və şöbə müdiri, incəsənət şöbəsinin elmi redaktoru vəzifələrində çalışıb. Azərbaycan Sovet Ensiklopediyası baş redaksiyasında incəsənət şöbəsinin elmi redaktoru işləyib.

Bir müddət Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Kinoşünaslıq və ekran dramaturgiyası kafedrasında dosent, baş müəllim olub. Sözün əsl mənasında, tələbələrinin hamisinə, dostuna çevrilib. Kino sahəsindəki xidmətlərinə görə müxtəlif diplomlara, mükafatlara, o cümlədən “Qızıl qələm” (1990), “Həsən bəy Zərdabi” (1998) mükafatlarına, Arif Babayev adına fəxri diploma (2002) layiq görülüb.

### Yada düşər xatirələr

Əməkdar incəsənət xadimi, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin professoru, kinorejissor Cəmil Quliyevin xatirələri Svetlana xanımı daha yaxından tanımağa kömək edir: “Svetlana İsmayılova “Azərbaycanfilm” kinostudiyasında ssenari redaksiya heyətinin üzvü, bir çox bədii, sənədli, animasiya filmlərinin aparıcı redaktoru idi. Kinostudiyanın Dublyaj şöbəsində rus dilindən Azərbaycan dilinə dublyaj olunan filmlərin redaktoru və tərcüməçisi kimi işləyirdi.

Onunla iki sənədli film üzərində işləmişəm. Onlardan biri akademik Püstəxanım Əzizbəyovaya həsr olunmuş film idi, ikinci film isə Qərbi Azərbaycanda, indiki Ermənistan ərazisindəki yurd yerimiz olan Nüvədi kəndindən bəhs edirdi. Svetlana xanım sənədli kinonu dərindən bilirdi və sənədli materiallarla dəqiq işləyirdi. Filmin görüntü sırası hazır olduqdan sonra məntiqli, təsirli yanaşma ilə həmin görüntülərə aid mətn hazırlayırdı.

Qayğıkeş, təvazökar insan olduğundan hamı onun otağına toplaşırdı. Adama elə gəlirdi ki, onun otağı intellektual, mədəni mərkəzdir. Görkəmli kinorejissorlardan Tofiq Tağızadə, Rasim Ocaqov, Şamil Mahmudbəyov, Ceyhun Mirzəyev, Ziyafət Abbasov, Cəmil Fərəcov, Yalçın Əfəndiyev, Dublyaj şöbəsinin aparıcı rejissorlarından Arif Həbibi, Ağası Zeynalov, görkəmli aktyorlardan Həsənağa Turabov, Səməndər Rzayev və digərləri həmişə onun otağına gəlir, yaradıcılıq söhbətləri edirdilər. Otağında həmişə isti çay olurdu, qonaq gələn insanları gülərüzlə qarşılayırdı. Bu kimi mehriban xüsusiyyətləri ilə insanları özünə yaxınlaşdırırdı.

Mədəniyyət və İncəsənət Universitetində bir neçə fənni tədris edirdi. Tələbələri tərəfindən sevilən, hörmət olunan pedaqoq idi. Svetlana xanım 2002-ci ildən Almaniyada yaşayanda da tələbələri onunla mütəmadi olaraq əlaqə saxlayırdılar. Dünyasını dəyişdiyini eşidəndə onlar sosial şəbəkədən təəssüfləndiklərini, kədərləndiklərini bildirirdilər. Bu isə onun nə qədər böyük sevgi ilə əhatə olunmasının bariz nümunəsidir.

Onunla sonuncu dəfə 2022-ci ilin fevral ayının 1-də danışdım. Bir müddət sonra xəstəxanada olduğunu eşitdim. Həyatdan getməsi mənim üçün ağır bir itki oldu. Çünki bir il əvvəl anamı itirmişdim. Çətin vaxtlarımda Svetlana xanım daim mənimlə əlaqə saxlayırdı. Baxmayaraq ki, Almaniyada idi, hər gün mənə zəng edirdi, qayğıma qalırdı. Qayğıkeş, təvazökar, dostluğu axıra kimi davam etdirməyi bacaran insan, ziyalı, peşəsini dərindən bilən bir şəxsiyyət idi. Allah ona rəhmət eləsin...”.

**Şəhla Əmirli**
**kinoşünas**

# Sən dünyada olmayanda...



Yazını niyə belə sərlövhə ilə qələmə aldığımı sonda açıqlayacam. İndi isə onunla bağlı düşüncələrimi xatirəsi ilə bölüşmək istəyirəm. Bəli, onun xatirəsi ilə. İnanıram ki, bu düşüncələr həzin, kövrək bir xatirə kimi oxucuların da yaddaşında iz qoyacaq. Çünki o, çoxlarının qəlbində xoş xatirə və həzin duyğularla əbədi yaşamaq haqqı qazanıb. Bu əbədiyaşarlığı da ona Tanrı verdi. Səsi ilə, istedadı ilə, fədakarlığı ilə, sənətkarlığı ilə onu elə yaratdı ki, o, daim yaşasın. Səsində, sənətində yaşasın.

Əziz oxucular, əminəm ki, bu düşüncələrlə siz də razısınız. Çünki mənim duyduqlarımı siz də duyursunuz. Siz də o səsin məlahətliliyinə, onun sənətinin böyüklüyünə heyransınız və onu heç kimlə səhv salmaq və ya səsini, avazını kiminləsə qarışdırmaq mümkünsüzdür. Çünki o, səsi, görkəmi, davranışı, hətta imici ilə də bənzərsiz idi. Aygün Hümbətova Bəylər.

Bizim onunla şəxsi tanışlığımız yox idi. Onun barəsində bu günə qədər nə yazı yazmışam, nə də haqqında veriliş hazırlamışam. Amma həmişə ona bir dinləyici kimi sevə-sevə qulaq asmışam. Bu sevginin mənbəyi isə onun peşəkar ifa tərzi olub. Hər bir ifasında nəsə yeni bir xal, yeni nəfəs, yeni zəngulə eşidəcəyim üçün onu maraqla dinləmişəm. Bəlkə bilirəm ki, bu maraq heç vaxt azalmayacaq. Çünki Aygün xanımın məlahətli səsi və peşəkar ifa məziyyətləri əsl sənətkarlıq nümunəsidir. Sənətdə özü olanlar heç vaxt unudulmur. Sən də unudulmayacaqsan, əziz Aygün!

Əgər şəxsi münasibətimiz olsaydı, bəlkə haqqında daha çox fikir söyləyərdim. Amma indi yalnız sənətin haqqında danışıb düşüncələrimi ruhunla bölüşürəm. Əminəm ki, bu dediklərim ruhuna əyandır. Ruhun varlığı həmişəyaşarlıqdır. Fərq etmir sən bu dünyada varsan, yoxsa yox. Səninlə bağlı düşüncələrimi də sən dünyada olmayanda qələmə aldım. İstədim ki, düşüncələrimi xatirənlə bölüşüm.

Sən bu sənət üçün doğulmuşdun. İstedadını zəhmətinlə qovuşdurub bu sənətin sirlərini daha dərindən mənimsəyib, ali təhsil alıb kamil ifaçılıq cəhətlərinə yiyələndin. İfanda muğam, xalq və bəstəkar mahnıları, milli və estrada nümunələri çox mükəmməl səslənirdi, hər nə oxudunsa ona öz möhürünü vurdun. İfalarınla sənətə öz adını yazdın. Amma, təəssüf ki, bəstəkarlıq üzrə Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasında aldığın ali təhsil yarımçıq qaldı. Bəlkə bu da taleyinə düşən bir qismət idi.

Oxuduğu nəğmələrin sonuncusu bəstəkar Sevda Məmmədlinin Elmira Sabirqızının sözlərinə “Sənli xatirələr” mahnısındakı kimi:

*Ömür bir dalğa idi, sahilə dəydi getdi,*
*Həyat bir məşəl idi, ölüm*
*söndürdü getdi...*

O, beləcə, ömür nəğmələrini ifa edərək bəlkə də öz taleyini oxuyub getdi. Və onun oxuduqlarında da elə insan taleyi səslənir.

Əziz Aygün, ifalarından aldığımız təəssürat ruhumuzun qidasıdır. Sanki qulağımda sənin bəstəkar Pikə Axundovanın İlham Aslanovun sözlərinə yazdığı “Qəlbimin səsi” mahnısından ifan səslənir, bu misranı eşidirəm: “Sən mənim ruhumun qida yerisən”. Bu məlahətli səs neçə-neçə ruhun qida yeri olub və olacaq. Hələ bu səsin açılmamış şifrələri açılacaq. Sənin sənətin daha da seviləcək və bu sənət haqqında daim xoş sözlər deyiləcək. Səsin nəsillərin mənəvi qida yeri olacaq.

Əziz Aygün, bütün bunlar sən dünyada olmayanda səni yaşadacaq. Bu yerdə unudulmaz bəstəkarımız Nəriman Məmmədovun şair Adil Babayevin sözlərinə bəstələdiyi “Ürəklərdə qalaydım” adlı mahnısından misralar da düşür yadıma. Sanki Aygün həzin səslə, incə ruhu və kövrək avazı ilə pıçıldayır:

*Könlüm aya, günə sirdaş,*
*Bircə kəlməm, bircə sözüm*
*Ürəklərdə qalaydı kaş,*
*Mən dünyada olmayanda.*

Səsi və sənəti ilə ürəklərdə qalan Aygün, ruhun şad olsun.

**Səadət Təhmirazqızı**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru**

# 52 illik ömrə sığan əsrlik sənət şöhrəti

Əhsən Dadaşov – 100

Tar ifaçılıq sənətindən söz düşəndə ilk olaraq Mirzə Sadıqcan, Qurban Pirimov və digər görkəmli sənətkarlar göz önünə gəlir. Sələflərinin ənənələrini layiqincə davam etdirən tarzənlərdən biri də, musiqi təşkilatçısı, pedaqoq, Əməkdar artist Əhsən Dadaşov olub. Bu il görkəmli tarzənin anadan olmasının 100 illiyidir.



Əhsən Əliabbas oğlu Dadaşov 4 sentyabr 1924-cü ildə Bakı şəhərində dünyaya göz açıb. İlk təhsilini 22 saylı orta məktəbdə alıb. Erkən çağlardan musiqiyə dərin maraq göstərib.

Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Yaqut Seyidovun araşdırmalarında qeyd edilir ki, Əhsən Dadaşov əvvəlcə tütək alətində ifa etməyə başlayıb, sonra tara həvəs göstərib. Bir gün məktəbdən evə dönərkən yolu Azərbaycan Dövlət Musiqi Texnikumunun qarşısından düşür. Divara vurulan qəbul elanını oxuyur. Valideynlərindən xəbərsiz sənədlərini hazırlayıb təhsil ocağının tar sinfinə verir. Qəbul imtahanını götürən tarzən Ənvər Mənsurov gəncin istedadını görür və deyir: “Musiqini duymağından hiss etdim ki, gələcəkdə ustad sənətkar olacaqsan”. Beləliklə, Əhsən Dadaşov 1938-ci ildə texnikuma daxil olur. Onun sənət müəllimləri görkəmli musiqiçilər, bəstəkar Səid Rüstəmov, Mənsur Mənsurov, Ənvər Mənsurov olur. Bu sənətkarlardan klassik muğam ifaçılığının xüsusiyyətlərini dərindən öyrənir. Sonralar onu daha da inkişaf etdirir və bu sənətin qüdrətli davamçılarından birinə çevrilir. Onun lentə yazdırdığı “Rast”, “Orta Mahur”, “Şur”, “Zabul-segah”, “Hümayun”, “Vilayəti-dilkeş”, “Çahargah”, “Bayatı-Şiraz” və s. muğamları bu gün də Azərbaycan Televiziya və Radio Verilişləri QSC-nin “qızıl fond”unda saxlanılır. O, hər ifasında muğama yeni xallar, çalarlar əlavə edib. Bu məharəti Ə.Dadaşovun ustad tarzən olmağla bərabər, onun tükənmək bilməyən fantaziyaya, oriyentasiyaya sahib olduğunu göstərib.

Ə.Dadaşov tarın texniki imkanlarından bacarıqla bəhrələnib. Musiqini dərindən duyan, novator ifaçı kimi tanınıb. Bir sıra ölkələrdə (İran, İraq, Hindistan, Əlcəzair, Qvineya, Ruminiya, Polşa, Avstriya, Misir, Kuba, Əfqanıstan, Suriya, Türkiyə, ABŞ və s.) musiqi mədəniyyətimizi layiqincə təbliğ edib. Görkəmli sənətkar tamaşaçı və dinləyicilər tərəfindən maraqla qarşılanan bir sıra rəng, təsnif, rəqs, ümumilikdə 30-a yaxın melodiyanın müəllifidir.

Araşdırmalardan məlum olur ki, 1937-ci ilin repressiyası onların ailəsindən də yan keçmir, atası repressiyaya məruz qalır. Ancaq bu məhrumiyyət və çətinliklər gənc musiqiçini ruhdan salmır. O öz üzərində daha çox çalışır. Qısa bir vaxt ərzində məktəbin açıq konsertlərində fəal çıxışlar edir və müvəffəqiyyət qazanır. Konsertlərin birində Ə.Dadaşov “Şur” muğamını çalır. Tədbirdə iştirak edən dahi bəstəkar Üzeyir Hacıbəyli onun çalğısını yüksək qiymətləndirib deyir: “Əhsən sənə, Əhsən!” Bu xeyir-dua gənc tarzənin sənətə marağını daha da artırır.



Onun parlaq istedadı görkəmli bəstəkar və dirijor Səid Rüstəmovun da diqqətini cəlb edir. Rəhbərlik etdiyi Xalq çalğı alətləri orkestrinə işə qəbul etmək istəyir. Ancaq Ə.Dadaşovun yaşı az olduğuna görə bir qədər gözləməli olur. O zaman belə bir ifadə işlədir: “Əhsən hələ vətəndaşlıq pasportu almayıb, amma tar çalmaq pasportunu çoxdan alıb...”. Nəhayət, gənc tarzən S.Rüstəmovun rəhbərlik etdiyi orkestrə qəbul edilir. Bəstəkar ona da xüsusi qayğı ilə yanaşır, sənətkar kimi formalaşması üçün böyük səy göstərir. Nəticədə o, kollektivin yaradıcı simalarından biri olur. Qırx ilə yaxın yaradıcılıq yolu keçən tarzən solist, orkestr ifaçısı, ansambl rəhbəri, bəstəkar, pedaqoq kimi şöhrət qazanır.

Ə.Dadaşov 1953-cü ildə Rumıniyanın paytaxtı Buxarestdə keçirilən Tələbə və gənclərin IV Ümumdünya musiqi festivalının laureatı, 1957-ci ildə isə Moskvada keçirilən VI Ümumdünya musiqi festivalının qızıl mükafatçısı olur.

Dünyaşöhrətli müğənni, SSRİ Xalq artisti Rəşid Behbudov 1962-ci ilin əvvəlində İranda qastrol səfərində olur. Tehran, Təbriz, İsfahan, Ərdəbil, Şiraz, Xoy, Ənzəli, Zəncan, Məşhəd və digər şəhərlərdə konsert proqramları ilə çıxış edir. Müğənninin həmin konsertlərdə unudulmaz tarzən Ə.Dadaşov və pianoçu Çingiz Sadıqov müşayiət edirlər.

İstedadlı tarzənin musiqi mədəniyyətimizin inkişafında xidmətləri yüksək qiymətləndirilir, 1959-cu ildə “Əməkdar artist” fəxri adına layiq görülür.

Sənətkar 1960-cı ildə Azərbaycan Televiziya və Radio Verilişləri QSC-nin nəzdində Xalq çalğı alətləri ansamblını yaradır. Ömrünün sonuna kimi bu ansamblın bədii rəhbəri olur. “Xatirə” xalq çalğı alətləri ansamblı görkəmli sənətkarın adını daşıyır.

Mədəniyyət tariximizdə bənzərsiz sənəti ilə dərin iz qoyan və musiqisevərlərin sevimlisinə çevrilən Əməkdar artist Əhsən Dadaşov yaradıcılığının coşqun çağlarında 30 may 1976-cı ildə, 52 yaşında vəfat edib. 2019-cu ildə Mədəniyyət Nazirliyinin dəstəyi ilə yazıçı-jurnalist Rafiq Hacıyevin tarzənin həyat və yaradıcılığından bəhs edən “Əhsən sənə, Əhsən!” kitabı işıq üzü görüb.

**Savalan Fərəcov**

# "Rəsulzadənin 10 cildlik külliyyatının nəşri işini davam etdirirəm..."

## Professor Nəsiman Yaqublu: "Hələ bizim tapmadığımız, araşdırmadığımız mənbələr var. Həmin mənbələr bir sıra ölkələrdədir"

6 mart görkəmli ictimai-siyasi xadim, ilk Cümhuriyyətimizin banilərindən biri, Azərbaycan Milli Şurasının sədri Məhəmməd Əmin Rəsulzadənin (1884–1955) xatirə günüdür. Rəsulzadə siyasi lider olmaqla yanaşı, Azərbaycanın dövlətçiliyi, tarixi, mədəniyyəti, ədəbiyyatı və ictimai fikri ilə bağlı diqqətəlayiq əsərlər qələmə alıb. Prezident İlham Əliyev görkəmli şəxsiyyətin 140 illiyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb. Rəsulzadənin çoxtərəfli fəaliyyətinə həsr olunmuş silsilə tədbirlər keçirilir.

Müsahibimiz Cümhuriyyət dövrünün tanınmış tədqiqatçısı, Məhəmməd Əmin Rəsulzadə İrsini Araşdırma Mərkəzinin sədri tarix elmləri doktoru, professor Nəsiman Yaqubludur.



*– Nəsiman müəllim, Cümhuriyyət dövrü və Məhəmməd Əmin Rəsulzadə ilə bağlı elmi-tədqiqat işlərinə nə vaxtdan başladınız?*

– 1988-ci ildən bu mövzularda araşdırmalara başlamışam. Mən o dövrdə Rusiyanın Sankt-Peterburq şəhərində ali təhsil almışdım. Həmin dövrdə Rusiyada arxivlər açılır, yeni sənədlər ortalığa qoyulurdu. Universiteti bitirib Vətənə qayıtdıqda gördüm ki, bizdə bu proses çox zəif gedir. Bundan sonra Cümhuriyyət dövrü və istiqlal şairimiz Əhməd Cavad haqqında araşdırmalara başladım. Onun övladları, nəvələri ilə görüşdüm. Həmin vaxt Ə.Cavadın həyat yoldaşı Şükriyyə Cavad (Axundzadə; 1902–1993) həyatda idi. Onunla görüşmək üçün Şəmkir rayonuna yollandım. Şükriyyə xanımın xatirələrini qələmə aldım.

1989-cu ildə professor Murtuz Sadıxlı məni Rəsulzadənin nəvəsi, rəssam Rais Rəsulzadə ilə tanış elədi. Rais müəllim mənə dedi ki, atam Azər Rəsulzadə sağdır, Qazaxıstanın Karaqanda şəhərində yaşayır. Azər müəllimlə görüşmək üçün ünvanı dəqiqləşdirib Qazaxıstana getdim. Onunla danışdım, xeyli arxiv materialları topladım. Bundan sonra araşdırma üçün Türkiyəyə üz tutdum. Türkiyədə Rəsulzadənin ən yaxın silahdaşlarından olan Məhəmməd Kəngərli, Cəmil Ünal, Əhməd Qaraca, Məhəmməd Azər Aran və digərləri ilə görüşdüm. Onlardan da çoxlu sayda sənəd və materiallar aldım.

1991-ci ildə M.Ə.Rəsulzadənin səsinin lent yazısını ilk dəfə olaraq Bakıya gətirdim. O vaxt Azərbaycan Televiziyasında "Dalğa" verilişi vardı. Çox böyük çətinliklə həmin verilişdə iki-üç dəqiqə Rəsulzadənin səsini ilk dəfə olaraq Azərbaycan xalqına çatdırdıq. 70 il qadağan edilən bir səs ilk dəfə 1991-ci il fevralın 2-də Azərbaycan ictimaiyyətinə təqdim olundu. Bundan bir qədər sonra Rəsulzadə haqqında ilk kitabım çap edildi. Qeyd etmək istəyirəm ki, bu, Rəsulzadə irsini araşdıranlar arasında, tədqiqatlar içərisində birinci kitab sayılır. Təbii ki, onu yazmaq çox çətin idi.

*– Əsas çətinlik nə ilə bağlı idi?*

– Çünki Rəsulzadə haqqında ilk dəfə yazılan bir kitab asan başa gələ bilməzdi. Digər tərəfdən uzun müddət qadağan edilmiş bir mövzu idi. O vaxt sənədləri araşdırıb toplamaq üçün arxivlərə girməyə imkan vermirdilər. Amma əlimdə olan arxiv və digər sənədlərin əsasında ilk tarixi-publisist kitabı yazdım. 1991-ci ildə bu kitab 30 minə yaxın tirajla çap edildi. Hətta məndə olan məlumata görə, sonradan bu kitab bir neçə dəfə yüksək tirajla çap edilib, yayılıbmış. Bundan da belə nəticəyə gəlmək olar ki, Rəsulzadə haqqında ilk kitab ictimaiyyət tərəfindən böyük maraqla qarşılanmışdı.

"Məhəmməd Əmin Rəsulzadə" adlı bu kitab, əslində, 1991-ci ilin əvvəllərində çıxmalı idi. Amma o zaman sovet rejimi hələ mövcud idi. Təbii ki, kitabda müəyyən ixtisarlar oldu. Avqustda Moskvada dövlət çevrilişinə cəhd oldu. Yadımdadır, ondan sonra da kitabın nəşrini bir müddət dayandırdılar. Həmin ilin oktyabr-noyabr aylarında kitab çap edildi.

*– Yəqin ki, bu kitab yeni araşdırmalarınız üçün böyük stimul olar...*

– Əlbəttə. Bu istiqamətdə araşdırmalarımı davam etdirdim. Həm kitabxanalardan, arxivlərdən, həm də başda Rəsulzadə olmaqla Cümhuriyyəti quranların ailələrindən materiallar topladım. Məsələn, Rəsulzadənin güllələnmiş oğlu Rəsul Rəsulzadənin fotosunu onun bir qohumundan tapdım. Rəsulzadənin xaricdəki pasportunu Məhəmməd Kəngərlidən aldım. Şəxsi arxivimdə 100-ə yaxın orijinal sənəd var. Bunları gələcəkdə Milli Arxiv İdarəsindəki şəxsi fonduma təqdim edəcəyəm.

*– İlk olaraq Rəsulzadənin irsinin hansı istiqamətini ictimaiyyətə təqdim etdiniz?*

– İlk dəfə 1997-ci ildə onun "Azərbaycan davası" adlı mühacirətdə yazdığı məqalələrdən ibarət kitabı nəşr etdirdim. Hazırda Rəsulzadənin 10 cildlik külliyyatının nəşri işini davam etdirirəm. Toplunun I cildi 2016-cı ildə, II cildi isə 2021-də çap olunub. Üçüncü cild üzərində iş gedir. Düşünürəm ki, Rəsulzadənin Fransa, Polşa, Almaniyada dərc edilmiş yazılarının hərəsi bir cild olacaq. Eyni zamanda məndə Rəsulzadənin 100-dən çox məktubu var. Bunları da bir cild altında nəşr etməyi planlaşdırıram. Rəsulzadənin həm rus, həm də fars dilindən çox gözəl tərcümələri var. Onları da ayrıca cilddə çap etdirəcəyəm.

*– Bu yaxınlarda sizin "Məhəmməd Əmin Rəsulzadə mətbuat haqqında" kitabınız çapdan çıxdı. Kitabda əvvəllər ictimaiyyətə məlum olmayan hansısa faktlar yer alırmı?*

– Kitabda Rəsulzadənin mətbuat haqqında 50-dən artıq yazısı oxuculara təqdim edilib. Kitabda eyni zamanda onun şəxsi məktublaşmalarındakı və arxiv sənədlərindəki mətbuat problemlərinə münasibətinə də toxunmuşam. Bu mövzu ilk dəfə araşdırılır. Rəsulzadənin ilk məqaləsi 1903-cü ildə çap edilib. Ancaq mətbuat haqqında fikirləri, yazıları 1906-cı ildən "İrşad" qəzetindən başlayır. Rəsulzadənin "İrşad", "Tərəqqi", "İraninov", ("Yeni İran") "Açıq söz", "Azərbaycan" qəzetlərində yazıları dərc olunub. Onun mühacirətdə "Yeni Qafqaziya", "Azər Türk", "Odlu Yurd" jurnallarında da yazıları var ki, bunları ilk dəfə mən araşdırıb təqdim etmişəm.

*– Rəsulzadə ilə bağlı bu günədək aparılan tədqiqatları yetərli hesab edirsinizmi?*

– Rəsulzadə ilə bağlı hələ də əhatəli araşdırmalara ciddi ehtiyac var. Onun mühacirətdə yazdığı əsərləri toplanıb çap edilməlidir ki, bu işlə məşğul oluram. İndi nə qədər gücüm çatacaq, onu bilmirəm. Bundan başqa, Türkiyənin bir sıra arxivlərində məxfi sənədlər var ki, onlar da açılmalıdır. Bir sıra Avropa ölkələri ilə yazışmaları var, onlar da araşdırılmalıdır. Görək, onların mühacirlərə münasibəti necədir? Eyni zamanda mühacirlərin izlənilməsi ilə bağlı keçmiş SSRİ-nin Dövlət Təhlükəsizliyi Komitəsində saxlanılan bir sıra sənədlər var. Bu sənədlər vasitəsilə Rəsulzadənin də nə dərəcədə izlənildiyi aydınlaşdırılmalıdır. Rəsulzadə böyük təzyiqlərə məruz qalıb, amma öz yolundan dönməyib, mübarizəsini axıra qədər davam etdirib.

*– Bildiyim qədər, Üzeyir Hacıbəylinin redaktoru olduğu "Həqiqət" qəzetində Rəsulzadənin iki yeni məqaləsini də aşkarlamısınız...*

– Rəsulzadənin biblioqrafiyasını hazırlamışam. Həmin biblioqrafiyada onun 1178 məqaləsinin adını vermişəm. Bu yaxınlarda öyrəndim ki, Ü.Hacıbəylinin 1910-cu illərdə nəşr etdiyi "Həqiqət" qəzetində Rəsulzadənin iki məqaləsi var. Amma bu da son deyil. Ola bilsin ki, digər qəzetlərdə yenə məqalələrini tapmaq mümkündür. İndiki halda Rəsulzadənin 1180 məqaləsi məlumdur. Onun sağlığında 27 kitabı nəşr edilib. Bunlardan 6-sı Azərbaycanda, 11-i Türkiyədə, qalanları isə digər ölkələrdə çap olunub. Rəsulzadənin bu günə qədər məlum olan 15 tərcümə əsəri var. Yəni o, çox zəngin bir irs qoyub gedib. Amma bu, son deyil. Çünki hələ bizim tapmadığımız, araşdırmadığımız mənbələr var. Həmin mənbələr bir sıra ölkələrdədir. Ora getmək, araşdırmaq böyük maliyyə tələb edir. Bu işlər reallaşarsa, Rəsulzadənin yeni əsərlərini tapmaq, ortalığa çıxarmaq mümkün olacaq. Bir məqam isə səs və təsvir lent yazıları ilə bağlıdır. Qeyd etdiyim kimi, onun 1953-cü ildə "Amerikanın səsi" radiosu ilə Azərbaycan xalqına müraciətini taparaq xalqımıza çatdırmışam. Amma onun bir neçə əlavə lent yazısı da var. Onları əldə etmək üçün xarici ölkələrdə axtarışlar aparmaq lazımdır. Mən tam əminəm ki, Rəsulzadənin qatıldığı bir neçə tədbirdən çəkilmiş görüntüləri Polşa, Fransa və Türkiyədən tapmaq mümkündür. Biz onları əldə edə bilsək, Rəsulzadənin 140 illiyinə də böyük bir töhfə vermiş olacağıq.

*– Dövlət başçısının Rəsulzadənin 140 illiyi ilə bağlı sərəncamını necə qarşıladınız?*

– Sərəncam imkan verir ki, Rəsulzadə ilə bağlı çoxlu tədbirlər keçirək. Sərəncamın icrasını bir az da faydalı etmək üçün böyük şəxsiyyətin mühacirətdəki əsərlərinin nəşrinə kömək etmək, onunla bağlı araşdırılmayan sənədləri tapıb Azərbaycana gətirmək lazımdır. Bundan başqa, Rəsulzadənin heykəlinin qoyulması məsələsini gündəmə gətirmək, ən azından doğulduğu Novxanı kəndində xatirə muzeyini yaratmaq olar.

*– Son olaraq rəhbəri olduğunuz Məhəmməd Əmin Rəsulzadə İrsini Araşdırma Mərkəzinin fəaliyyəti haqqında məlumat verərdiniz...*

– Bu mərkəz təxminən 30 il öncə yaradılıb. Mərkəzin əsas vəzifəsi Rəsulzadənin əsərlərini toplamaq, araşdırmaq və nəşr etməkdən ibarətdir. Bundan başqa, mərkəz olaraq qarşımızda duran əsas vəzifələrdən biri də gənc nəsli elmi araşdırmalara cəlb etməkdir.

**Nurəddin Məmmədli**

## Xatirə təqvimi — 6 – 8 mart

### Azərbaycan

**6 mart 1920** – Ədəbiyyatşünas Yəhya Qasım oğlu Seyidov (1920-1980) Ordubadda anadan olub.

**6 mart 1931** – Əməkdar incəsənət xadimi, ədəbiyyatşünas, yazıçı Fərman Allahverdi oğlu Eyvazov (1931-1996) anadan olub.

**6 mart 1955** – Azərbaycan Xalq Cümhuriyyətinin qurucusu, yazıçı-publisist Məhəmməd Əmin Hacı Molla Ələkbər oğlu Rəsulzadə (31.1.1884 – 1955) Ankarada vəfat edib. Xalq Cümhuriyyətinin süqutundan (1920) sonra Avropada, Türkiyədə Azərbaycan mühacirətinə rəhbərlik edib. "Azərbaycan şairi Nizami", "Çağdaş Azərbaycan ədəbiyyatı" və s. əsərlərin müəllifidir.

**6 mart 2007** – Əməkdar rəssam Ənvər Hacağa oğlu Almaszadə (27.8.1918 – 2007) vəfat edib.

**6 mart 2008** – Xalq rəssamı, heykəltaraş, Dövlət mükafatları laureatı İbrahim İsmayıl oğlu Zeynalov (27.12.1934 – 2008) vəfat edib.

**7 mart 1908** – Xalq rəssamı Salam Əbdülqasım oğlu Salamzadə (1908-1997) anadan olub. Azərbaycan modernizminin nümayəndələrindən biridir. Əsərləri: "Toxuculuq fabriki", "Fermada qadın" və s.

**7 mart 1926** – Azərbaycan aşıq poeziyasının görkəmli nümayəndəsi Aşıq Ələsgər (1821-1926) vəfat edib. 1821-ci ildə Göyçə mahalının Ağkilsə kəndində doğulub. 1918-ci ildə qaçqınlıq taleyi yaşayıb, ömrünün sonuna yaxın doğulduğu kənddə qayıdıb və orada dünyasını dəyişib.

**7 mart 1926** – Şərqşünas, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Böyükağa Murtuza oğlu Hüseynov (1926–1983) Bakıda anadan olub.

**7 mart 1940** – Bakıda Azərbaycan rəssamlarının birinci qurultayı işə başlayıb. Qurultayda İsmayıl Axundov Azərbaycan Rəssamlar İttifaqı Rəyasət Heyətinin sədri, Mürsəl Nəcəfov məsul katib seçilib.

**7 mart 1945** – Xalq artisti Xuraman Abdulla qızı Hacıyeva (1945 – 15.2.2005) anadan olub. "Arşın mal alan" (1965), "Lətifə" və s. filmlərdə çəkilib. Gənc Tamaşaçılar, Naxçıvan Musiqili Dram teatrlarında işləyib.

**7 mart 1997** – Respublika Sarayında Xalq şairi Səməd Vurğunun 90 illik yubileyinə həsr edilmiş təntənəli gecə keçirilib. Prezident Heydər Əliyev mərasimdə çıxış edib.

**8 mart 1911** – Xalq artisti Ağadadaş Gülməmməd oğlu Qurbanov (1911 – 25.6.1965) anadan olub. Gənc Tamaşaçılar, Akademik Milli Dram teatrlarında çıxış edib. "Koroğlu", "Bir qalanın sirri", "Bizim küçə", "Arşın mal alan" (1965, Soltan bəy) və s. filmlərdə çəkilib.

**8 mart 1913** – Azərbaycanın ilk kinomexanik qadını Nailə Məmməd qızı Bədəlova (1913 – 27.5.2000) anadan olub. Bakı kinostudiyasında, "Bakı", "Nizami" kinoteatrlarında çalışıb.

**8 mart 1923** – Ədəbiyyatşünas, teatrşünas Ədilə Əlihüseyn qızı Əliyeva (1923–1984) Bakıda anadan olub.

**8 mart 1935** – Azərbaycan SSR Xalq Komissarları Sovetinin qərarı ilə Dövlət Teatr Muzeyinə (1934-cü ildə yaradılıb) görkəmli dramaturq Cəfər Cabbarlının adı verilib.

**8 mart 1940** – Kinooperator Ramiz Əlirza oğlu Babayev (1940 – 11.1.1994) Bakının Əmircan qəsəbəsində doğulub. 1957-ci ildən "Azərbaycanfilm" kinostudiyasında işləyib.

**8 mart 1947** – Şair, publisist Ağamalı Sadiq Əfəndi (Ağamalı Əhməd oğlu Əfəndiyev; 1947–1995) Qazax rayonunun Qaymaqlı kəndində doğulub. Kitabları: "Əyil, səndən keçim, dünya", "Vətən üçün yaşanmış əfəndi ömrü" və s.

**8 mart 2006** – Xalq artisti, tanınmış teatr və kino aktyoru Əliabbas Gülabbas oğlu Qədirov (15.2.1946 – 2006) vəfat edib. Akademik Milli Dram Teatrında çalışıb, teatra rəhbərlik (2002–2006) edib. Kinoda yaddaqalan obrazlar yaradıb.

### Dünya

**6 mart 1909** – Polyak satirik yazıçısı, şair, filosof Stanislav Yeji Les (Stanislaw Jerzy Lec; 1909–1966) anadan olub.

**6 mart 1928** – Kolumbiya yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı (1982) laureatı Qabriel Qarsia Markes (Gabriel Jose de la Concordia Garcia Marquez; 1928 – 17.4.2014) anadan olub.

**7 mart 1875** – Fransız impressionist bəstəkarı, XX əsr musiqisinin islahatçılarından Moris Ravel (Joseph Maurice Ravel; 1875–1937) anadan olub.

**7 mart 1924** - Yapon yazıçısı, dramaturq, ssenarist Kobe Abe (əsl adı Abe Kimifusa; 1924–1993) anadan olub.

**7 mart 1941** – Rusiyanın Xalq artisti Andrey Mironov (Menaker; 1941–1987) anadan olub.

**8 mart 1851** – Böyük türk maarifçisi, mütəfəkkir, naşir İsmayıl Qaspıralı (Qasprinski; 1851 – 24.9.1914) Krımın Qaspıra şəhərində doğulub.

**Hazırladı: V.Orxan**

# Sənətkar qəlbinin hərarəti duyulan naxışlar



Azərbaycanın qədim sənətkarlıq növlərindən biri də ağac üzərində oymadır. Ölkəmizin bir çox bölgələrində populyar olmuş bu sənət Nizami yurdu Gəncədə də yaşadılır. Bu sənətin ustadlarından Saləddin Məhərrəmov haqqında söhbət açacağıq. Bu il sənətkarın 70 illik yubileyidir.

Saləddin Şurəddin oğlu Məhərrəmov 4 avqust 1954-cü ildə Goranboy rayonunun Faxralı kəndində anadan olub. 1970-ci ildə Gəncə Uşaq Rəssamlıq Məktəbini, 1979-cu ildə isə Gəncə Pedaqoji Texnikumunun Rəssamlıq fakültəsini bitirib. 2011-ci ildən Azərbaycan Rəssamlar İttifaqının üzvüdür.

Saləddin Məhərrəmov 1990-cı ildən oyma sənəti ilə məşğul olur. Sənətkar deyir ki, oymaçı olmaq insandan, əsasən, iki şey tələb edir: birincisi, rəssamlıq qabiliyyəti, ikincisi və ən əsası, böyük səbir: "30 ildən çoxdur bu sahədə çalışıram. Təbiət vurğunu olduğum üçün ilk zamanlar naxışlar bəlkə də daha gözəl görünürdü. Naxışları, təbiətin bəxş etdiyi gözəllikləri ağac üzərinə həkk etməkdən böyük zövq alırdım. Tədricən bu sənət üzrə təcrübə qazandım. Hər bir ağacın öz naxışı, öz gözəlliyi var. Bu gözəlliyi duyub hiss etmək lazımdır. Əgər qarşındakı ağacın səndən nə istədiyini hiss edib duya bilmirsənsə, demək, o da sənə istədiyini verməyəcək".

Saləddin müəllim bir çox sərgilərdə iştirak edib, maraqlı əsərləri ilə diqqət mərkəzində olmağı bacarıb. Əl işləri ölkəmizlə yanaşı, Rusiya və Amerikada da kolleksiyalarda qorunub saxlanılır.

Düşündüyü mövzuları ağac üzərinə köçürərkən qəlbinin hərarətini də bu əsərlərə ötürür. Təqdim etdiyi hər bir əsər məhz özünün düşüncə təxəyyülünün məhsuludur. Heç vaxt kimsəni təkrarlamır. Çünki hər yeni əsərində sənətin yeni kodlarını kəşf edə bilir.



Sənətinin incəlikləri haqqında danışan Saləddin müəllim deyir: "Bu sənətdə, əsasən, qiymətli ağac növlərindən istifadə etmək lazımdır. Bu sırada qoz, palıd, cökə və çinar ağaclarını qeyd edə bilərəm. Həm də ağac üzərində oyma sənətkardan yüksək dəqiqlik və səliqə tələb edir.





Bir əsəri ərsəyə gətirmək üçün ən azı 25 gün, bir ay vaxt ayırmalı olursan. Bu isə ustadan səbir istəyir".

Saləddin Məhərrəmovun vurduğu naxışlar sirli, rəmzlərlə dolu məktublar kimidir. Ünvanı bəlli olmayan, ancaq danışan və susan məktublar... Hərdən sərgilərdə onun əsərlərinin naxışlarına toxunanda bir həqiqət özünü təsdiqləyir: ustadın əllərinin hərarəti hər bir işində yaşayır. "Qədim yurd yerlərimiz", "Mənim Kəpəzim", "Nar budağı", eləcə də tarixi şəxsiyyətlərin portret cizgilərini özündə əks etdirən "Şah İsmayıl Xətai", "Cavad xan", "Nizami Gəncəvi", "Səlahəddin Əyyubi" kimi əsərləri diqqətəlayiq nümunələr olmaqla yanaşı, müəllifin mövzu dairəsinin genişliyini göstərir.

44 günlük Vətən müharibəsi və şanlı Zəfərimiz də Saləddin Məhərrəmovun ilham qaynağına çevrilib, onu bir-birindən maraqlı, bitkin, orijinal, koloritli əsərlər yaratmağa sövq edib. Müəllif Vətən müharibəsinin ağrı-acısını və qürurlu məqamlarını maraqlı sənət əsərlərində yaşatmağa müvəffəq olub. "Ömər aşırımı", "Xudafərin körpüsü", "Qarabağ mənzərələri", "Albantürk məbədləri", "Ana məhəbbəti", "Şəhid anasının ürəyi" kimi əsərləri tariximizin bu şanlı səhifəsinə işıq tutur.

Saləddin Məhərrəmovu 70 illik yubileyi münasibətilə təbrik edir, möhkəm cansağlığı və yaradıcılıq uğurları arzulayırıq.

**Anar Ərtoğrul Burcəliyev**

# “TikTok”da mədəniyyəti necə təbliğ edək?

Mədəniyyət Nazirliyində “TikTok” videoməzmun sosial media platformasının nümayəndə heyəti ilə görüş keçirilib. Fevralın 29-da nazir müavini Səadət Yusifovanın iştirakı ilə gerçəkləşən görüşdə “TikTok” platformasının Şərqi Avropada dövlət siyasəti və korporativ əlaqələr departamentinin direktoru Sergey Sokolov, “TikTok Live” baş direktorunun müavinləri Junjiao Bay, Junqing Wu və digər qonaqlar iştirak ediblər.





Söhbət zamanı qonaqlara Mədəniyyət Nazirliyinin dəstəyi ilə həyata keçirilən “#TikTokdanÖyrən” (#LearnOnTikTok) müsabiqəsi barədə məlumat verilib. Layihənin əhəmiyyəti vurğulanıb, fikir mübadiləsi aparılıb. Nazirliyin tabeliyində olan müəssisələrin layihədə aktiv iştirakının təşviq edilməsi, mədəniyyət müəssisələrinin layihəyə cəlb olunması üçün “TikTok” tərəfindən əlavə təlimlərin keçirilməsi, “TikTok Live” vasitəsilə mədəniyyət sahəsinə dair məzmunun yaradılması mövzuları diqqət mərkəzinə çəkilib.

Xatırladaq ki, 21 fevral – 21 aprel tarixlərini əhatə edən #TikTokdanÖyrən” müsabiqəsinin məqsədi mədəniyyət müəssisələri tərəfindən yaradıcı videoların paylaşılması ilə bu müəssisələrə “TikTok” platforması vasitəsilə daha çox ziyarətçinin cəlb edilməsidir. Layihəyə aparıcı muzey, kitabxana və teatrlar qoşulub. Milli Azərbaycan Tarixi Muzeyi kolleksiyalarının eksponatlarını və Azərbaycan Milli İncəsənət Muzeyi sərgilərini nümayiş etdirir, Azərbaycan Milli Xalça Muzeyi qısa virtual turlar təşkil edir. Eyni zamanda Azərbaycan Dövlət Akademik Rus Dram Teatrı tamaşaların necə ərsəyə gətirilməsi, Dövlət Gənc Tamaşaçılar Teatrı aktyorların məşq prosesi və Akademik Milli Dram Teatrı aktyorların tamaşaya hazırlıq prosesi barədə məlumatlar təqdim edirlər.

Aksiyaya qoşulan hər bir mədəniyyət müəssisəsi “#TikTokdanÖyrən” həştəqindən istifadə edərək ən azı bir maarifləndirici videonu öz hesablarında yerləşdirməlidir. Qaliblər aprelin 30-dək layihənin “TikTok” hesabında elan olunacaq.

# “Yaz paralelləri”

## Tarix Muzeyində Azərbaycan və bolqar irsinin təbliği

Milli Azərbaycan Tarixi Muzeyində İnnovasiyalar və təhsil proqramları şöbəsinin təşkilatçılığı ilə “Yaz paralelləri” adlı tədbir keçirilib. Layihə Azərbaycanda və Bolqarıstanda baharın qarşılanmasına həsr olunub. Məqsəd iki ölkə arasında qarşılıqlı olaraq xalqlarımızın tarixi və mədəni irsini, adət-ənənələrini təbliğ etməkdir.

Qızılgül Bolqarıstanın, xarıbülbül isə Azərbaycan xalqının qələbəsinin rəmzidir. Sofiya Universitetində fəaliyyət göstərən Azərbaycan Dili və Mədəniyyəti Mərkəzi tərəfindən “Yaz paralelləri” layihəsinə cəlb olunan bolqarıstanlı uşaqlar xarıbülbülün rəsmini çəkiblər. Tədbirdə onların əl işləri videoçarx vasitəsilə nümayiş etdirilib. Həmçinin Azərbaycanın “Uni Kids Club”unun üzvləri tərəfindən çəkilən Bolqarıstana həsr olunmuş rəsmlər sərgilənib.

Qeyd edək ki, Milli Azərbaycan Tarixi Muzeyinin fondunda Bolqarıstanın hökumət nümayəndələri və ictimai xadimləri tərəfindən muzeyə verilmiş 100-ə yaxın hədiyyə qorunub saxlanılır və həmin materiallar “Dost ellərin hədiyyələri” adlı kataloqda yer alıb. Həmin hədiyyələr fotoslayd vasitəsilə nümayiş etdirilib.



Muzeyin İnnovasiyalar və təhsil proqramları şöbəsinin müdiri Fəridə Şəmsi və Bolqarıstan səfirliyinin əməkdaşı Vladimir Bakırciyev çıxış ediblər. “Azərbaycan-Bolqarıstan dostluğunun inkişafına yardım” İctimai Birliyinin sədri Mariya Hüseynova-Atanasova tədbirin təşkilatçılarına təşəkkürünü bildirib.

Bədii hissədə Şövkət Ələkbərova adına 20 nömrəli 11 illik Musiqi məktəbinin nağaraçalanlar ansamblı, “1001 gecə” xoreoqrafiya studiyası, “Uni Kids Club”un üzvləri və s. musiqi və rəqs nömrələri təqdim ediblər.

# Əmir Bahadır ekrana çıxır

Özbəkistan kinematoqrafçıları Səmərqənd əmiri, sərkərdə, Səmərqəndin vizit kartı olan memarlıq ansamblının – Registanın təməlini qoymuş Əmir Bahadır Yalanqtuşa (1578–1656) həsr olunmuş tarixi-bədii film çəkiblər. Film Kinematoqrafiyanın İnkişafı Milli Mərkəzinin və vilayət administrasiyasının dəstəyi ilə “Ezgu film” studiyasında ərsəyə gəlib.

Filmin quruluşçu rejissoru Cahangir Ahmedov deyir: “Bahadır Yalanqtuş bizim milli qəhrəmanımızdır. Onun sayəsində bütün dünya Registan meydanının gözəlliyindən həzz alır… Təəssüf ki, bizdə Bahadır Yalanqtuş barədə məlumat azdır. Ssenari müəllifi Həsən Taşxocayev ilə birlikdə hazırlıq müddətində Tarix İnstitutunda xeyli araşdırma apardıq. Özbəkistan Prezidentinin təşəbbüsü ilə çəkilən bu film insanlara, xüsusən də gənclərə bizim memarlıq irsimizin necə yaradıldığından söhbət açır...”.

Rejissor aktyor seçmində də çox ehtiyatla hərəkət etdiklərini bildirib. Kastinq işləri dörd ay çəkib. Baş qəhrəman roluna Habibullo Nizamov böyük mübahisələrdən sonra təsdiq olunub. Filmin batal səhnələrində Qazaxıstanın Əməkdar incəsənət xadimi, tryuk quraşdırıcısı Jaydarbek Kunqujinovun “Nomad Stan” kaskadyor komandası da iştirak edib.

Filmin premyerasının Novruz bayramı ərəfəsində baş tutacağı gözlənilir.

**Gülcahan**

# Səhranın ulduz təpələrinin sirri

Səhranın ulduz təpələri – hündürlüyü təxminən 300 metrə qədər olan qeyri-müəyyən piramida formalı bu qum birləşmələri Yer kürəsinin möcüzələrindən sayılır. Yuxarıdan baxdıqda onlara ulduz görünüşü verən mərkəzi zirvədən uzanan qolları bu təpələri daha ecazkar edir.



Elm adamları bu geoloji xüsusiyyətlərin daxili strukturunu üzə çıxaran və onlardan birinin əmələ gəlməsinin nə qədər vaxt apardığını göstərən ilk dərin tədqiqatın nəticələrini təqdim ediblər.

Tədqiqat Mərakeşin şərqində, yerli bərbər dilində “ən yüksək müqəddəs nöqtə” mənasını verən “Lala Lallia” adlı ulduz təpəsində aparılıb. Sahara səhrasında Erg Çebbi adlı kiçik qum dənizində, şəhərdən təxminən 5 kilometr aralıda yerləşən bu məkan Əlcəzairlə sərhədə yaxındır.

“Lala Lallia” ətrafdakı təpələrdən təqribən 100 metr hündürdür və eni təxminən 700 metrdir. Təpənin tərkibində 5 milyon metrik tona yaxın qum var.

Tədqiqatçılar qum dənələrinin içərisinə nəzər salmaq üçün yerə nüfuz edən radardan və “Lala Lallia”nın əmələ gəlməsinin nə qədər vaxt apardığını müəyyən etmək məqsədilə luminesansdan istifadə ediblər. Ulduz təpəsinin yaşının təxminən 900 il olduğu məlum olub və külək səhrada qumu şiddətlə sovurduğu üçün burada ildə təxminən 6400 metrik ton qum yığılıb.

Dünyanın ən böyük ulduz təpələri Çinin qərbindəki Badın-Jaran səhrasında yerləşir. Ulduz təpələrinə Namibiyadakı Namib qum dənizində, Əlcəzairdə və Səudiyyə Ərəbistanındakı səhralarda da rast gəlinir. Şimali Amerikadakı Kolorado Milli Parkında silsilə ulduz qum təpələri var.

Xronoqraf

# Tarixdə bu gün

## Olaylar, faktlar (6 – 8 mart)

### 114 il əvvəl...




**8 mart 1910-cu ildə** Kopenhagendə (Danimarka) sosialist qadınların beynəlxalq konfransında Klara Setkinin təklifi ilə 8 martın qadınların həmrəyliyi günü kimi qeyd edilməsi qərara alınıb. İlk dəfə 1911-ci ildə Almaniya, Avstriya, İsveçrə, Danimarkada, iki il sonra Rusiyada qeyd olunub. 1966-cı ildə 8 mart SSRİ-də istirahət günü elan edilib. 1977-ci ildə BMT tərəfindən beynəlxalq günlər sırasına daxil edilib.

### 107 il əvvəl...

**6 mart 1917-ci ildə** Rusiyanın “Müvəqqəti hökumət”i Finlandiyaya muxtariyyət verib. Çar II Nikolay taxt-tacdan əl çəkəndən sonra bir neçə ay Rusiyanı idarə edən “Müvəqqəti hökumət” liberal siyasəti ilə tarixə düşdü. 1917-ci ilin Oktyabr inqilabından sonra hakimiyyəti ələ alan bolşeviklər də Finlandiyanın müstəqilliyi ilə barışmalı oldular. Finlandiya XVIII əsrin əvvəlində Şimal müharibəsi (Rusiya-İsveç) nəticəsində qismən Rusiyanın nəzarətinə keçmişdi.



### 102 il əvvəl...

**6 mart 1922-ci ildə** Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin plenumu Azərbaycan əlifbasının latın yazı qrafikasına keçirilməsi ilə bağlı xüsusi komissiya (sədr Səməd Ağamalıoğlu) yaratmaq barədə qərar qəbul edib. Komissiyanın bazasında 1922-ci ilin mayında Yeni Türk Əlifbası Daimi Komitəsi yaradılıb.

### 80 il əvvəl...

**6 mart 1944-cü ildə** SSRİ Xalq Komissarları Soveti “Cənubi Azərbaycan əhalisinə iqtisadi və mədəni yardımın gücləndirilməsi tədbirləri haqqında” qərar qəbul edib. Qərarda Azərbaycan dilində ordu qəzeti nəşr etmək, Cənubi Azərbaycan yazıçı-şairlərinin əsərlərinin nəşri üçün Təbrizdə mətbəə açmaq, Azərbaycan Dövlət Dram Teatrının Cənubi Azərbaycan şəhərlərinə qastrolunun təşkili kimi məsələlər əksini tapmışdı.

### 59 il əvvəl...



**7 mart 1965-ci ildə** Amerika dəniz piyadalarının desantı Cənubi Vyetnam sahillərinə çıxarılıb. ABŞ-nin Vyetnama qarşı müharibəsi başlayıb. Yeddi ilə yaxın sürən müharibədə amerikalılar istəklərinə nail ola bilmədilər və Vyetnamdan çıxmalı oldular.

### 32 il əvvəl...

**6 mart 1992-ci ildə** Azərbaycan Respublikası Ali Sovetinin Xocalı faciəsi ilə bağlı çağırılan fövqəladə sessiyasında Prezident Ayaz Mütəllibov istefa verməyə məcbur olub. Bir gün öncə spiker Elmira Qafarova da istefa vermişdi. Ali Sovetin sədri seçilən Yaqub Məmmədov prezident səlahiyyətlərini də icra etməyə başlayıb.

**Hazırladı: V.Orxan**

# “Young Lions” yaradıcı gəncləri bir araya gətirəcək

Yaradıcı sənaye istehsalçılarının nüfuzlu beynəlxalq festivalı “Cannes Lions” (“Kann aslanları”) 1954-cü ildən Fransanın Kann şəhərində keçirilir. 1955-ci ildən isə festival çərçivəsində gənc yaradıcılar üçün nəzərdə tutulmuş “Young Lions” (“Gənc aslanlar”) müsabiqəsi təşkil olunur.




2020-ci ildə ölkəmiz də ilk dəfə bu müsabiqəyə qatılıb. Mədəniyyət Nazirliyinin dəstəyi ilə “Young Lions” Azərbaycan” bu il üçüncü dəfə keçiriləcək. Film, rəqəmsal, dizayn, print, media və s. olmaqla bir çox kateqoriya üzrə təşkil edilir. “Young Lions” Azərbaycan”da isə gənclər “film”, “dizayn” və “print” olmaqla üç kateqoriya üzrə mübarizə aparacaqlar.

30 yaşadək (21 iyun 1993-cü il tarixindən sonra doğulanlar) yaradıcı şəxslərin komanda şəklində müsabiqəyə qatılması üçün nəzərdə tutulur. İşlər beynəlxalq münsiflər tərəfindən dəyərləndiriləcək. “Print” kateqoriyası üzrə xülasə “SOCAR Polymer”, “film” kateqoriyası üzrə xülasə Mədəniyyət Nazirliyi və “dizayn” kateqoriyası üzrə xülasə “Code Academy” tərəfindən komandalara təqdim olunacaq.

Qeydiyyat 27 mart 2024-cü il tarixinədək davam edəcək. Qeydiyyatdan keçən komandalar ödənişsiz olaraq spikerlərin çıxışlarını dinləmək və tədbirə qoşulmaq imkanı əldə edəcəklər.

Müsabiqənin mükafatlandırılma mərasimi aprelin 13-də Nizami Kino Mərkəzində keçiriləcək. Biletləri www.canneslions.az saytında almaq olar.

“Young Lions” Azərbaycan” müsabiqəsinin qalib komandaları (3 komanda) bu ilin 17–21 iyununda Kann şəhərində keçirilən böyük finalda ölkəmizi təmsil etmək haqqı qazanacaq.

Tədbir haqqında yeniliklərdən sosial media vasitəsilə xəbərdar olmaq üçün “Young Lions” Azərbaycan” səhifəsini izləyə bilərsiniz.

# Leonardo da Vinçi rəssamlıqdan savayı daha nələri bacarıb?

## 12 cildlik “Atlantik Kodeksi”nin rəqəmsal sərgisi

İntibah dövrünün ən məşhur dahisinə həsr olunmuş rəqəmsal sərgi çərçivəsində ilk dəfə Avstraliyada Leonardo da Vinçinin 12 cildlik “Atlantik Kodeksi” epopeyasının orijinal səhifələri təqdim olunacaq. Sərgi martın 16-da Melburn şəhərindəki “Lume” Sərgi və Konfrans Mərkəzində açılacaq.



1637-ci ildən Milanın “Ambrosiana” kitabxanasında saxlanılan və İtaliya Mədəniyyət Nazirliyinin icazəsi ilə qismən Avstraliyaya göndərilən çoxcildlik 1478 – 1519-cu illəri əhatə edir və 1119 səhifədən ibarətdir. Onlarda müxtəlif mövzularda – aerodinamika, döyüş maşınları, musiqi alətləri, həndəsə, botanika və sairə üzrə təsvirlər və qeydlər var. Bu monumental əlyazma heykəltaraş Pompeo Leoni tərəfindən XVI əsr Florensiya nəşrinin səpələnmiş vərəqlərindən tərtib edilib, onun məhsuldar eskizləri, dizaynları, ixtiraları və yazıları tez-tez dahi şəxsiyyətin məşhur şah əsərlərinin kölgəsində qalır. “Atlantik Kodeksi”nin geniş ictimaiyyətə ilk təqdimatı 2009-cu ildə Milanda, sonuncu – iyirmi dördüncü təqdimatı isə 2015-ci ildə baş tutub. Əsər 50 səhifəlik kiçik hissələrlə nümayiş etdirilib və hər sərgi üç ay davam edib.

Melburn sərgisində, həmçinin Romadakı Leonardo da Vinçi Muzeyində sənətkarlar tərəfindən yaradılan Leonardo dizaynlı 40 maşın və qurğular, o cümlədən sualtı nəfəs aparatı, hərəkəti nizamlayan çarx, avtomobil domkratı və əfsanəvi uçan maşın nümayiş etdiriləcək.

# İsveçrədə təqaüdçülərə 13-cü pensiya veriləcək

## Ayda 2550 avro bəs eləmir

İsveçrədə martın 3-də keçirilən referendumda əhali təqaüd yaşının artırılmasının əleyhinə, pensiya ödənişlərinin artırılmasının isə lehinə səs veriblər.

Səsvermədə iştirak edənlər həmkarlar ittifaqlarının aylıq pensiyadan əlavə hər il 13-cü pensiyanın verilməsi təşəbbüsünü dəstəkləyiblər. Pensiya yaşının 66-ya qaldırılması təşəbbüsü isə referendumdan keçməyib.

Hazırda bu ölkədə dövlətin verdiyi aylıq pensiyanın məbləği 2550 avrodur. Lakin isveçrəlilərin fikrincə, bu, böyük şəhərlərdə normal yaşamaq üçün kifayət etmir. Hakimiyyət isə pensiya ödənişlərinin artırılmasının büdcəyə baha başa gələcəyi barədə xəbərdarlıq edib.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

“Mədəniyyət” qəzetinin kompüter mərkəzində səhifələnib, “Azərbaycan“ nəşriyyatında çap olunub.
**Tiraj:** 5086. **Sifariş:** 551
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641